UNIKAL

№16 (2198) 17 may 2024-cü il
Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru

# Öncə sərhəd, sonra yekun sülh:

## Delimitasiya və sərhəd təhlükəsizliyi mühüm mərhələdə





Səh.9

## Elman Rüstəmovla bağlı yeni iddia

*Azərbaycanda yüksək post sahiblərinin bir çoxu bu və ya digər dərəcədə biznes imkanlarına sahibdirlər. Lakin təcrübədə onların tutduqları vəzifələrdən uzaqlaşınca öz bizneslərini ya tamamilə, ya da əhəmiyyətli dərəcədə itirdiyi kimsəyə sirr deyil. Bununla belə, deyəsən, istisnalar da var axı... Gəlin tələsməyək və bu yaxınlarda ölkə mətbuatının diqqət çəkdiyi maraqlı bir məqama birlikdə göz ataq. Belə ki, ötən ilin yekunlarına görə, "Bank Respublika"nın ümumi gəlirləri 230 milyon 602 min manat təşkil edib. Bank bu göstərici üzrə ölkənin bank sistemində 5-ci yeri tutub. O da aydınlaşıb ki, hesabat dövründə bankın gəlirlərinin164 milyon manatı...*

Səh.5

## "Dörd kənd məsələsi prinsipial olaraq həll edilib"



*Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Rusiya sülhməramlı kontingentinin missiyasının başa çatmasından, Ermənistan-Azərbaycan arasında sülh sazişinin nə zaman imzalanacağından, Azərbaycanın 8 kəndi ilə bağlı məsələdən və Ermənistanda keçirilən...*

Səh.4

## Lalə Şövkət deputatlığa namizəd olmayacaq



*VII çağırış Milli Məclisə seçkilərin vaxtı yaxınlaşdıqca, tanınmış simaların deputatlığa namizəd olub-olmayacağı da gündəmə gəlir. İctimaiyyət yeni formalaşacaq parlamentin tərkibinin Qarabağ münaqişəsindən sonra yaranan yeni dövrə uyğun olacağını gözləyir. Bu ilin avqust-sentyabr aylarında keçirilməsi...*

Səh.5

## Rəsmi Bakıdan Fransanın daxili işlər nazirinə cavab



*Fransanın daxili işlər naziri Jerar Darmaninin 16 may 2024-cü il tarixində "France-2" telekanalına müsahibəsində ölkəmizə qarşı, eləcə də Azərbaycanla Yeni Kaledoniyanın müstəqillik liderləri arasında iddia edilən münasibətlərə dair səsləndirdiyi növbəti əsassız fikirləri tamamilə rədd edirik.*

Səh.4

# Nuradan qalmaqallı sözlər: “Özlərini elə dartırlar, sanki...”



***”Özlərini elə dartırlar ki, elə bil alçaq dağları bunlar yaradıblar”. Bu sözləri müğənni Nura Suri deyib.***

Sənətçi özündənrazı həmkarlarını hədəfə alıb: ”Həmişə müğənniləri, məşhurları müdafiə etmişəm. Özüm də bu cameədəyəm deyə heç vaxt istəməmişəm ki, müğənniləri hansısa mövzuda təhqir, hətta tənqid etsinlər. Amma və lakın indi bunu deməliyəm. Müğənnilər bir-birilərinə fors etməkdənsə, ilk növbədə hörmət etməyi bacarmalıdılar ki, kənardakılar da eynisini etsin. Eyni tədbirlərdə oluruq, hamı özünü elə dartır ki, elə bil alçaq dağları bunlar yaradıblar. Bir az mehriban olun, gülümsəyin, səhnəyə çıxan müğənniləri ilk özünüz alqışlayın, rəqs edin, öz münasibətinizlə tamaşaçıya örnək olun. Bəziləri ad günlərinə, tədbirlərə dəvət edirlər, amma özləri heç kəsin tədbirinə getmirlər. Heç ”Instagram”da ”story” də təbrik etmirlər. Nədir dərdiniz? Kimdən artıqsınız? Kimin sizə borcu var? Şəxsən mən indiyə kimi hamıya yaxşı olmuşam, indi isə qarşılıqlıdır münasibətim. Kim mənə necə, mən də elə. Deyirəm e, amma yenə də çağırılan yerə gedirəm, ya da hədiyyə göndərirəm. Diqqətsiz qoymuram. Neçə ildir ad günü etmirəm, heç kəsi dəvət etmirəm. Klip təqdimatını da ancaq mətbuat üçün edirəm. Yəni bu statusu özümə şamil etmirəm. Biri bir az o birindən daha tələbatlıdır deyə, özünü göylə aparmamalıdır. Çünki hər şey bu həyatda müvəqqətidir. Uğur da, pul da, status da hər şey. Uğurlu, xoşbəxt insan başqasına yuxardan aşağı baxmır. Edirsə, deməli, hələ də komplekslərdən boğulur”.

# Aygün Kazımova yeni klipini təqdim etdi



***Xəbər verdiyimiz kimi, Xalq artisti Aygün Kazımova türkiyəli müğənni-bəstəkar Genco Ecerlə duet şəklində oxuduğu ”Maşallah” mahnısını və klipini bir neçə gün əvvəl təqdim edib.***

Pop kraliça bu dəfə klipdən kadrarxası məqamları bölüşüb. Müğənni ekran işində yaratdığı ən maraqlı və çətin obrazının hazırlıq məqamlarını yayımlayıb.

Obrazı yaratmaq üçün uzun hörüklərdən istifadə edilib. Həmin kadrlar çəkilən zaman Kazımovanın saçları saatlarla asılı vəziyyətdə qalıb. Meduza Qorqona obrazını xatırladan görünüş ekran işində ən yaddaqalan nüanslardan olub.

Qeyd edək ki, DMC musiqi şirkəti imzası ilə işıq üzü görən klip iki gün içində yutubda trendə düşüb.

# Rəqsanənin həbsdə olan mülkləri ilə bağlı məhkəmə qərar verdi



***Rusiyada yaşayan müğənni Rəqsanə İsmayılovanın Azərbaycandakı mülklərinə həbs qoyulması barəsində olan hökmdən verilən apellyasiya şikayəti üzrə məhkəmə prosesi başa çatıb.***

“Unikal” “Qaynarinfo”ya istinadən xəbər verir ki, hakim Elşən Kazımovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub.

Qərara əsasən, müğənni Rəqsanə İsmayılovanın apellyasiya şikayəti təmin edilməyib, birinci instansiya məhkəməsinin çıxardığı qərar dəyişdirilmədən qüvvədə saxlanılıb.

Xatırladaq ki, Nəsimi Rayon Məhkəməsinin qərarı ilə Rəqsanə İsmayılovanın külli miqdarda borcu olduğuna görə Goranboy rayonunda və digər ərazilərdə yerləşən 100 sotdan artıq torpağına və onun üzərindəki əmlaka həbs qoyulub.

# "Oğlum rəqqasə ilə evlənsə..." - Manaf Ağayev



***”Çox oğlan deyib ki, ”filan qızı almaram”, baxmışam alıb, indi də 4 uşağı var”.***

“Unikal” bakıvaxtı.az-a istinadən xəbər verir ki, bu sözləri müğənni Manaf Ağayev ”Rəng-arəng səhər” verilişində deyib.

Ağayev övladının ailə qurmaq barədə verəcəyi qərarlara qarışmayacağını bildirib: ”Mən onun qərarına qarışmaram. Oğlumun seçimidir. Sevgi yaşa baxmır. İstəsə, rəqqasə də ala bilər. Nə olur ki? Oxuyanlara nə olub ki? Əvvəldən demək olmaz”.

# Çingizdən ailə qurması ilə bağlı xəbərlərə reaksiya



***Müğənni Çingiz Mustafayev evlənməsi ilə bağlı xəbərlər yayılıb. Belə ki, onun mayın 19-da Türkiyənin Kuş adasında ukraynalı xanımla ailə quracağı bildirilib.***

Məsələ ilə bağlı Bizim.Media-nın əməkdaşı sənətçi ilə əlaqə saxlayıb. Çingiz qısa olaraq bunları söyləyib: ”Bununla bağlı mənə çox sayda zənglər olunub. Amma mən şəxsi həyatımla bağlı məlumat vermək istəmirəm. Evlənəcəyimlə bağlı yayılan xəbərləri nə inkar, nə də ki təsdiq edirəm”

Qeyd edək ki, Ç.Mustafayev bir müddət əvvəl mətbuata müsahibəsində Azərbaycandan köçəcəyini və Türkiyədə yaşamağı planlaşdırdığını açıqlamışdı.

# “Gündəmdən düşən kimi ailələrini efirə gətirirlər” - Samir Cavadzadə



***”Mən düşünürəm ki, o ifaçılar, bilirlər ki, gündəmdə mahnılar ilə çox qalmayacaqlar”.***

“Unikal” olay-a istinadən bildirir ki, bu sözləri ”Tarixin bir günü” verilişində Avroviziya təmsilçimiz Samir Cavadzadə deyib. O bildirib ki, bəzi ifaçılar ailələrini gündəm etməyə çalışırlar:

”Bir az gündəmdən düşən kimi ailələrini efirə gətirirlər. Təki müzakirə etməyə səbəb olsun. Bununla da efirdə qalacaqlar. Belə düşünürlər”.



# İsa Qəmbər parlament seçkilərinə qatılacaq

***Qanuna əsasən, bu ilin noyabr ayının 3-də Azərbaycanda parlament seçkiləri keçirilməlidir.***

Lakin bu il ölkəmizdə beynəlxalq əhəmiyyətli COP29 tədbiri keçiriləcək, buna görə parlament seçkilərinin önə çəkilməsi müzakirə olunur. Bu barədə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov da açıqlama verib. “Qanunvericiliyə əsasən, bu il noyabr ayında parlament seçkiləri olmalıdır. Seçkilərin müddəti önə də çəkilə bilər”, - o, Komissiyanın mayın 2-də keçirilən iclasında bildirib.

Beləliklə, Azərbaycanda bu il parlament seçkilərinin keçiriləcəyi qaçılmazdır. Artıq bir sıra partiya sədrləri, ictimai şəxslər seçkilərdə iştirak edəcəklərini elan ediblər.

Bir müddət əvvəl yenidən aktiv siyasətə qayıdan İsa Qəmbərin də seçkilərdə iştirak edib-etməyəcəyi maraqlıdır. O, mayın əvvəlində yenidən Müsavat Partiyasının başqanı seçilib.

Maraqlıdır, İsa Qəmbər parlament seçkilərində iştirak edəcəkmi? O, hansı dairədən namizədliyini irəli sürməyi düşünür?

Partiyanın Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı modern.az-a deyib ki, İsa Qəmbər istədiyi dairədən namizədliyini irəli sürə bilər: ”Musavat Partiyası kollegial qərar qəbul edir. Partiyamız parlament seçkilərində iştirak etmək barədə vaxt dəqiq elan edildikdən sonra qərar verəcək. Əgər seçkilərdə iştirak etməyi qərarlaşdırsaq, onda İsa bəy hansı dairəni istəsə, oradan da namizədliyi irəli sürülə bilər”.

# "Qızıl Xaç" yenidən Bakıdakı separatçılara baş çəkdi

***Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) əməkdaşları may ayında Azərbaycan tərəfinin haqqında məlumat verdiyi Erməni əsilli şəxslərə yenidən baş çəkiblər.***



Bu barədə BQXK-nın Bakı nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova məlumat verib. Qeyd olunur ki, saxlanılan şəxslərlə təkbətək görüşlər keçirilib və onların ailələri ilə əlaqəsi üçün şərait yaradılıb.

”Mandatına uyğun olaraq BQXK bu cür başçəkmələr zamanı saxlanılan şəxslərlə rəftarı və saxlanma şəraitini qiymətləndirir. BQXK, həmçinin, şəxslərin ailələri ilə əlaqələrini bərpa etmək və ya davam etdirmək üçün şərait yaradır. BQXK-nın prosedurlarına uyğun olaraq, başçəkmələrlə bağlı müşahidələr və tövsiyələr yalnız saxlayan tərəflə paylaşılır və müzakirə edilir”, - açıqlamada deyilir.

Xatırladaq ki, istintaqı Baş Prokurorluq və DTX əməkdaşlarından ibarət birgə istintaq qrupu tərəfindən davam etdirilən cinayət işi üzrə separatçı rejimin ümumilikdə 15 nəfər üzvü məsuliyyətə cəlb olunub. Həmin şəxslər barəsində müxtəlif illərdə Baş Prokurorluq tərəfindən cinayət işi açılıb və beynəlxalq axtarış verilib. Ötən il keçirilən antiterror əməliyyatından sonra Azərbaycanın hüquq-mühafizə orqanları Qarabağda qondarma qurumun “prezidentləri” olmuş Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, sabiq ”xarici işlər naziri” David Babayan, eləcə də “parlament sədri” David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan və keçmiş “dövlət naziri” Ruben Vardanyanı da həbs edərək Bakıya gətirib.

# Emin Əmrullayevin nazirliyinə qarşı növbəti ağır ittiham

## Kəskin tənqidlər qarşısında müəmmalı susqunluq: uşaqların I sinifə müsahibə yolu ilə qəbulu qanunsuz imiş?



***Mayın 1-dən 2024-2025-ci tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbuluna start verilib. Qəbul prosesi www.mektebeqebul.edu.az elektron portalı vasitəsilə aparılır. Elektron portalda 1 may tarixindən uşaqların qeydiyyatı, 3 maydan isə Azərbaycan bölməsi üzrə soRğuların yerləşdirilməsi (məktəb və müəllim seçimi) həyata keçirilir.***

Mayın 3-dən 17-dək dövlət ümumi təhsil müəssisələrinin tədris digər dillərdə aparılan birinci siniflərinə qəbulla bağlı təşkil olunan müsahibəyə yazılmaq üçün qeydiyyat aparılır. Müsahibə uşaqların həmin dil üzrə şifahi nitq bacarıqlarının yoxlanılması məqsədilə keçirilir.

Birinci sinfə sənəd qəbulu 13 sentyabr tarixinədək davam edəcək.Lakin I sinifə qəbulla bağlı müsahibə aparılması kəskin reaksiyalara səbəb olub. Bir müddət öncə Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov uşaqların I sinfə müsahibə ilə qəbul olunması məsələsinə etirazını bildirib.

Belə ki, komitə sədri parlamentin aprelin 19-da keçirilən plenar iclasında ”Təhsil haqqında” qanuna təklif olunan dəyişiklərin müzakirəsi zamanı ölkədə 9 illik təhsilin icbari olduğunu vurğulayıb. S.Novruzov deyib ki, şagird məktəbə dərs öyrənmək üçün gəlir: ”Əgər həmin uşaq evdə oxuyacaqdısa, niyə məktəbə gəlir?! Vaxtilə Rusiya çarı Aleksandr manifest qəbul etdi və camaatı evindən dartıb məktəbə gətirirdilər. İndi isə insanların məktəbə gəlməyib evdə oturmasını istəyirlər”.

“Əgər məktəbəqədər təhsil müəssisələrin sayı əhatə dairəsinə görə Bakıda 25%, rayonlarda isə 10%-i keçmirsə, bu uşaq harda təhsil almalıdır? İndira Qandinin vaxtına qədər Hindistanda belə qanun var idi ki, ancaq varlılar oxuya bilər. Vətəndaş övladını evinə yaxın məktəbə gətirir, uşağın birinci sinifdən qeydiyyatdan keçirməyə böyük ansambl düzülüb, müsabiqə keçirilir. Nə müsabiqə keçirir? Harada göstərilib bu? Hansı qanunda yazılıb? Hərə özündən qanun qəbul edib, təhsilə mane törətməsin”, - komitə sədri əlavə edib.

Açığı, deputatın etirazı da, bu etirazı əsaslandırmaq üçün gətirdiyi arqumentlər də kifayət qədər məntiqlidir. I sinifə qəbulun müsahibə yolu ilə aparılmasının hansı qanunvericilik aktı ilə tənzimləndiyi bəlli deyil, digər tərəfdən, əgər Azərbaycan qanunvericiliyi ilə ölkədə 9 illik təhsilin icbari olduğu təsbit edilibsə, onda hansı məntiqlə uşaqların I sinifə qəbulu qarşısında süni sədd yaradılmağa çalışılır? Novruzovun da dediyi kimi, bu ziddiyyət faktiki olaraq qanun pozuntusu deyilmi?

Məsələnin digər tərəfi də var. Təbii ki, uşaqların məktəbə hazırlığı fiziki, psixoloji və emosional-iradi hazırlıq səviyyələri tələb edir. Kövrək yaşda onların “imtahan” və ya “müsahibə” adı ilə sorğulanması müəyyən stress yaratması qaçılmazdır. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji- psixologiya kafedrasının müəllimi, dissertant Yaqut Ağasiyeva da azedu.az saytına təsdiqləyib ki, “imtahan” anlayışı bir qisim valideynlərdə təşviş yaratdığı üçün onlar eyni psixoloji halı övladlarına ötürürlər. Nəticədə uşaqda “məktəb”, “müəllim” qorxusu formalaşır: “Bu baxımdan uşaqların müsahibəyə cəlb olunmasına həm valideynlər, həm pedaqoqlar, həm də psixoloqlar diqqətli yanaşmalıdırlar”. Psixoloq bildirir ki, uşaqla elə ünsiyyət qurulmalıdır ki, o bunu bir imtahan kimi deyil, ilkin tanışlıq kimi görə bilsin.

Onu da deyək ki, uşaqların I sinifə qəbul zamanı müsahibədən keçməsi məsələsi 2 il öncə də müzakirə predmetinə çevrilmişdi. Həmin vaxt yerli KİV yazırdı ki, müsahibədən keçə bilməyən şagird kənarda qalır. Valideyn də məcbur olub övladını repetitor yanına qoyur ki, uşaq imtahan prosesindən keçə bilsin. Yaranmış bu vəziyyətə isə tanınmış təhsil eksperti, sabiq deputat Şahlar Əsgərov çox kəskin reaksiya vermişdi. Onun sözlərinə görə, birinci sinfə gedəcək uşağın imtahan verməsi ağılsız addımdır: “Güman edirəm ki, hər bir dövlət öz uşağının, gəncinin təhsil almasında maraqlı olmalıdır. İmtahanı yersiz hesab edirəm. Birinci sinifə daxil olmaq üçün uşaqlar imtahan verməməlidirlər. Müharibə şəraitində böyümüş uşaqları yenidən imtahan edib, birinci sinfə götürmək çox ağılsız bir şeydir. Bununla razı deyiləm. Uşaqlar imtahan edilməməlidirlər. Onlar məktəbdə müəllimdən öyrənməlidirlər, repetitordan yox” (oxu.az)

Lakin maraqlıdır ki, Emin Əmrullayevin rəhbərlik etdiyi Təhsil Nazirliyi nə iki il öncə sabiq deputat və təhsil eksperti Şahlar Əsgərovun, nə də hazırkı deputat Siyavuş Novruzovun məlum mövzuda yetərincə sərt tonda etirazlarına münasibət bildirməyi zəruri saymır. Düzdür, nazirlik rəsmiləri ayrı-ayrı vaxtlarda uşaqların I sinifə qəbul zamanı müsahibə-imtahan prosesindən keçməsini adi hal kimi qiymətləndirir, az qala bunun formal xarakter daşıdığını göstərməyə çalışır, lakin reallıq fərqlidir. Ən azından 9 illik icbari təhsilin olduğu ölkədə I sinifə qəbulun müsahibə yolu ilə aparılmasının hansı qanunvericiliyə əsaslandığı və məntiqlə nə qədər səsləşdiyi ictimaiyyətə ağlabatan şəkildə izah edilməlidir.

***Toğrul Əliyev***

15_27 IYUl-QARA.qxd 5/16/2024 11:04 PM Page 4



# Öncə sərhəd, sonra yekun sülh: Delimitasiya və sərhəd təhlükəsizliyi mühüm mərhələdə

***Ötən gün Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın doqquzuncu görüşü keçirilib.***

Görüşün gedişində komissiyalar onlar tərəfindən qəbul edilmiş 2024-cü il 19 aprel tarixli 8-ci görüşün Protokoluna uyğun olaraq görülmüş işləri müzakirə edib və Sovet İttifaqı çərçivəsində onun süqutu dövründə mövcud olmuş hüquqi cəhətdən əsaslandırılan respublikalararası sərhədə uyğunlaşdırılması məqsədilə bilavasitə Bağanıs Ayrım (AR) - Bağanis (ER), Aşağı Əskipara (AR) - Voskepar (ER), Xeyrımlı (AR) - Kirants (ER) və Qızılhacılı (AR) - Berkaber (ER) yaşayış məntəqələri arasında sərhəd xəttinin hissələrinin SSRİ SQ Baş Qərargahının 1979-cu ildə növbətçilik prosedurunu keçmiş 1976-cı il tarixli topoqrafik xəritəsinə uyğun olaraq yerdəki geodeziya ölçmələri əsasında koordinatların dəqiqləşdirilməsi nəzərə alınmaqla birgə tərtib olunmuş Protokol-təsvirini razılaşdırıblar.



Görüşün yekunu olaraq müvafiq protokol imzalanıb. Növbəti görüşün keçirilməsi tarixi və yeri işçi qaydada razılaşdırılacaq.

Mövzu ilə bağlı "Unikal"a açıqlama verən politoloq Qabil Hüseynli bildirib ki, protokolun imzalanması kifayət qədər müsbət haldır: "Biz 4 kəndlə bağlı razılığa gəldikdən sonra protokol imzalamağa da nail olmuşuqsa, bu o deməkdir ki, delimitasiya prosesi gözlənildiyi kimi, lazımi sürətlə sona qədər davam edəcək. Ermənilərin narhatlıqlarına, mitinqlərə və Nikol Paşinyana qarşı çıxışlarına baxmayaraq, onlar da başa düşəcəklər ki, dünənə qədər azərbaycanlıların oturduğu kənddə bu gün onlar yaşaya bilməz. Ona görə də öz siyasi liderlərinin nə etdiyinə düzgün qiymət verməyi bacarmalıdırlar. Onu da qeyd edim ki, delimitasiya prosesi uzun vaxt aparacaq. Delimitasiyanın ən çətin gedəcəyi yer isə Zəngəzur bölgəsi olacaq, çünki həmin bölgədə bəzi sərhəd əraziləri Azərbaycan Ordusunun nəzarəti altındadır. Dünənə qədər Paşinyan "31 kənd" deyəndə məhz həmin əraziləri nəzərdə tuturdu. Mən Azərbaycan tərəfinin "kim haradadırsa, sərhəd də oradır" prinsipi ilə hərəkət edəcəyinə inanmıram. Artıq hansı xəritələrdən istifadə ediləcəyi razılaşdırılıb və bununla bağlı imzalar atılıb. Mənim zənnimcə, onlar topoqrafik xəritələr olduğuna görə kifayət qədər etimad doğuran xəritələrdir. Buna baxmayaraq, delimitasiya prosesi zamanı müəyyən gərginlik olacaq. Bu gərginlik əsasən Zəngəzur bölgəsində gözlənilir. Orada sərhədlərin müəyyənləşməsi prosesi xeyli gərgin və mübahisəli keçəcək. Belə bir atalar sözü var, işə başlamaq, onun yarısını görmək deməkdir. Zənnimcə, işə başlayıblarsa, axıra qədər gedəcəklər", - deyə o qeyd edib.

Politoloq Elxan Şahinoğlu hesab edir ki, Azərbaycanla Ermənistan arasında dialoq müxtəlif səviyyələrdə intensivləşib. Onun sözlərinə görə, iki ölkənin lideri prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyan arasında, o cümlədən xarici işlər nazirləri Ceyhun Bayramovla Ararat Mirzoyanla yanaşı parlament sədrlərinin görüşləri də artmaqdadır: "Azərbaycan və Ermənistan parlamentlərinin sədrləri Sahibə Qafarova ilə Alen Simonyan arasında növbəti görüş mayın 16-da Cenevrədə gerçəkləşib. Bundan əvvəl parlament sədrləri martın 22-də eyni şəhərdə görüşmüşdülər. Bu görüşlər sülh və çərçivə sazişinin imzalanması tarixini yaxınlaşdırır. Görüşlərin intensivləşməsinin başqa bir əhəmiyyəti də var, ortam yumşalır, tərəflər bir-birlərinə qarşı sərt ritorikadan çəkinməyə başlayıblar. Qarşımızda Türkiyə-Yunanıstan münasibətləri örnəyi var. İki ölkə arasında mübahisə yaradan mövzulara baxmayaraq, Ankara ilə Atina mübahisələri dərinləşdirmək və bununla qarşıdurmanı gücləndirmək əvəzinə ortaq nöqtələr tapmağa imkan verən siyasətə üstünlük verməyə başlayıblar".

Politoloq onu da deyib ki, erməni keşiş mitinq və küçə yürüşlərinə fasilə vermək məcburiyyətində qalıb, kütləvilik alınmayıb. Onun fikrincə, keşiş növbəti mərhələdə küçədən otaq müzakirələrə keçməyi planlaşdırır, o müxalifət nümayəndələri ilə görüşlərə start veriləcək: "Bu mərhələ də nəticə verməyəcək. Müxalifət keşişin işə yaramadığını anlamağa başlayıb. Baş nazir Nikol Paşinyan keşiş və onun arxasınca gedənlərdən narahat olsaydı, Danimarkadakı konfransa getməz, İrəvanda qalardı. Müxalifət keşişi də xərcləyəndən sonra Paşinyana qarşı müqaviməti davam etdirmək üçün başqa alternativ axtarmalı olacaq. Əslində müxalifət İkinci Qarabağ müharibəsindən sonra Paşinyanı devirmək üçün mümkün bütün alətlərdən istifadə edib, heç biri nəticə verməyib. Bunun sadə səbəbi var, cəmiyyətin əksər hissəsi radikalların arxasınca getmək istəmir. Ancaq Paşinyan da tələsməlidir, nə qədər ki, reytinqi aşağı enməyib Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşmasına nail olmalıdır".

"Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiya prosesi ilə bağlı artıq fikir birliyi var". Bu sözləri Bakı Politoloqlar Klubunun rəhbəri, siyasi elmlər doktoru Zaur Məmmədov Bakıvaxtı.az-a açıqlamasında deyib. Onun sözlərinə görə, bu birlik ondan ibarətdir ki, mərhələli şəkildə şərti sərhəddəki müxtəlif istiqamətdə məsələlər öz həllini tapacaq: "Ancaq maraqlı məqam odur ki, Zəngəzur dəhlizi və ümumiyyətlə kommunikasiyaların açılışı ilə bağlı tərəflərin baxış bucaqlarındakı məsələlərin həll edilməsidir. Tərəflərin müzakirə masasında məhz bu məsələ var. Azərbaycan və Ermənistan rəsmiləri maddə-maddə Zəngəzur dəhlizi və digər kommunikasiya xətləri ilə bağlı məsələləri qeyd edirlər. Almatı görüşündən sonra Bakıda və İrəvanda mətnlər bir daha təhlil olunacaq".

Analitik vurğulayıb ki, Ermənistanda davam edən etiraz aksiyalarının məqsədi sülh prosesini, əldə olunan razılaşmaları pozmaqdır: "Ermənistandakı müxalifət hökumətə qarşı kilsədən, din xadimlərindən istifadə edir. Robert Koçaryan və ermənilərin baş katolikosu II Qareginin siyasi və maliyyə dəstəyi hesabına erməniləri küçələrə daşımaq istəyirlər. Məqsəd Paşinyan hökumətinə təzyiq göstərmək, sülhlə bağlı müzakirələri, münasibətlərin yeni mərhələsini pozmaqdır".

***M.İbrahimli***



# Qusar bələdiyyəsinin sədri həbs olundu

***Qusar rayonunda baş vermiş ekoloji hüquqpozmalarla bağlı vəzifəli şəxs cinayət məsuliyyətinə cəlb edilib.***

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, Qusar rayonunda ekoloji hüquqpozmaların törədilməsi və digər qanun pozuntuları üzrə fakta görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə Baş Prokurorluqda başlanmış cinayət işinin ibtidai istintaqı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində davam etdirilir.

İstintaqla Qusar bələdiyyəsinin sədri İbrahimov Əlfəddin Qeysəddin oğlunun vəzifə səlahiyyətlərini aşmaqla torpaq sahələrini qanunsuz olaraq satmasına, bilə-bilə qanunsuz hərəkətlərə görə külli miqdarda rüşvət almasına və vəzifə saxtakarlığı törətməsinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Əlfəddin İbrahimov Cinayət Məcəlləsinin 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda), 311.3.3 (külli miqdarda rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə tam və hərtərəfli istintaq aparılmaqla təqsirli şəxslərin dəqiq dairəsinin müəyyən olunması, eləcə də ibtidai istintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətin məlumatlandırılması təmin ediləcək.

# Azərbaycanda problemli kreditlərin həcmi açıqlanıb



***2024-cü il aprel ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 25442,7 milyon manat təşkil edib. Onun 21324,8 milyon manatı uzunmüddətli kreditlər olub.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsinin Mərkəzi Bankın məlumatları əsasında hazırladığı hesabatda qeyd olunub.

Bildirilib ki, ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 1,9 faizini təşkil edib. Belə ki, ödəmə vaxtı keçmiş kreditlərin məbləği il ərzində 20,3 faiz azalaraq 470,8 milyon manat olub.

Əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği 2024-cü il aprel ayının 1-nə 13150,5 milyon manat olub.

2024-cü ilin yanvar-aprel aylarında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,70 manata, 1 Avro - 1,84 manata, 100 Türk lirəsi - 5,44 manata, 100 Rusiya rublu - 1,86 manata bərabər olub.

15_27 IYUl-QARA.qxd 5/16/2024 11:04 PM Page 5



# Prezident onları təltif etdi



***Prezident İlham Əliyev Heydər Əliyev Fondu əməkdaşlarının təltif edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncamda deyilir:

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Heydər Əliyev Fondunun 20 illiyi münasibətilə qərara alıram:

Azərbaycanın ictimai və mədəni həyatında səmərəli fəaliyyətlərinə görə Heydər Əliyev Fondunun aşağıdakı əməkdaşları təltif edilsinlər:

3-cü dərəcəli "Əmək" ordeni ilə
Əliyeva Afət Əlixan qızı
Əliyeva Gülşən Şəfa qızı
"Tərəqqi" medalı ilə
Abdullayev Məhəmməd İzzət oğlu
Aslanov Ceyhun Xeyrulla oğlu
Ələkbərov Rüfət Nazim oğlu
Əliyeva Ülviyyə Kamal qızı
Həsənova Ayan Hümmət qızı
Kərimov Rəşad Əziz oğlu.

# Baş nazirdən teatrlarla bağlı qərar



***Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrına və Gəncə Dövlət Dram Teatrına "milli" statusu verilib.***

"Unikal" xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb.

Mədəniyyət Nazirliyi Maliyyə Nazirliyi ilə birlikdə bu Qərardan irəli gələn məsələləri həll edəcək.

# Bu şagirdlər təkrar imtahana cəlb edilməyəcək



***IV və VI siniflərində təşkil olunacaq monitorinqlərdə iştirak edə bilməyənlər təkrar imtahana cəlb edilməyəcək.***

"Unikal" xəbər verir ki, bunu Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Ümumi təhsilin təşkili şöbəsinin böyük məsləhətçisi Fərid Cəfəri deyib.

O bildirib ki, ümumi təhsil müəssisələrinin IV və VI siniflərində təşkil olunacaq monitorinqlərdə üzrlü səbəbdən iştirak edə bilməyən şagirdlər üçün təkrar imtahanın təşkili nəzərdə tutulmayıb.

# Qarabağ Universitetinə mətbuat katibi axtarılır

***Qarabağ Universitetində İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri və ictimaiyyətlə əlaqələr üzrə mütəxəssis vəzifələri üzrə vakansiyalar elan edilib.***




"Unikal" xəbər verir ki, bu barədə Elm və Təhsil Nazirliyi məlumat yayıb. Bildirilib ki, tələblərə cavab verən namizədlər müraciətlərini karabakh@edu.gov.az elektron poçt ünvanına göndərə bilərlər.

"Namizədlər ətraflı məlumatla nazirliyin rəsmi internet səhifəsinin "Elanlar" bölməsinə, eləcə də aşağıdakı keçidlərə daxil olmaqla tanış ola bilərlər. Diqqətinizə çatdırırıq ki, yalnız vakansiya tələblərinə uyğun gələn və bütün lazımi sənədləri təqdim edən şəxslərin müraciətlərinə baxılacaq", - məlumatda qeyd olunub.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Lukaşenko Fəxri və Şəhidlər xiyabanlarını ziyarət etdi

***Azərbaycanda dövlət səfərində olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 16-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib.***



"Unikal" xəbər verir ki, Belarus Prezidenti Ulu Öndər Heydər Əliyevin məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Həmçinin Aleksandr Lukaşenko Şəhidlər xiyabanını ziyarət edib. Prezident Aleksandr Lukaşenko Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

# "Azad edilmiş ərazilərin bərpasında Belarus şirkətlərinin iştirakına şad olardıq" - Prezident

***Azərbaycan azad olunan ərazilərdə Belarusun şirkətlərini görmək istəyir.***



"Unikal"ın məlumatına görə, bunu Azərbaycan Prezidenti İlham Əliyev belaruslu həmkarı Aleksandr Lukaşenko ilə geniştərkibli görüş zamanı deyib.

Dövlət başçısı qeyd edib ki, qarşılıqlı fəaliyyətin perspektivlərinə baxdıqda böyük potensialı, əmtəə dövriyyəsinin artmasını və sənaye kooperasiyasının, kənd təsərrüfatında əməkdaşlığın genişləndirilməsini görmək olar:

"Əlbəttə ki, biz azad edilmiş ərazilərin bərpasında Belarus şirkətlərinin, müəssisələrinin iştirakına şad olardıq. Nümayəndə heyətlərinin üzvləri bu məsələni də müzakirə ediblər".

# Müdafiə Nazirliyi məlumat yaydı

***Türkiyə Respublikasının Konya şəhərində "Anadolu Ankası - 2024" ("Anatolian Phoenix - 2024") beynəlxalq axtarış-xilasetmə təlimində "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib.***

Bu barədə Azərbaycan Müdafiə Nazirliyindən bildirilib.

"Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə Azərbaycan Hərbi Hava Qüvvələrinin, Hərbi Dəniz Qüvvələrinin və Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı hərbi attaşelik aparatının nümayəndələri iştirak ediblər.

Əvvəlcə iştirakçılara təlimin gedişatı, qarşıda duran tapşırıqların məqsədi və yerinə yetirilməsi barədə statistik məlumatlar, eləcə də beynəlxalq təlimə həsr olunmuş qısametrajlı videogörüntü təqdim olunub.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra təlim poliqonunda "Anadolu Ankası - 2024" beynəlxalq axtarış-xilasetmə təliminə cəlb edilən iştirakçılar tərəfindən



müxtəlif epizodların praktiki icrası media nümayəndələri və qonaqlar tərəfindən maraqla izlənilib.

# Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh sazişi tarixi fürsətdir - Ərdoğan



***Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh sazişi tarixi fürsətdir.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada Gürcüstanın Baş naziri İrakli Kobaxidze ile birgə mətbuat konfransı zamanı bildirib.

"Türkiyə və Gürcüstan bölgə ölkələri olaraq Cənubi Qafqazda sülh və sabitlik istiqamətində əməkdaşlığı davam etdirəcək", - o qeyd edib

# Bakıda tıxacı aradan qaldırmağa hesablanan layihələrin icrasına başlanılıb

***Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən şəhər darboğazlarında hərəkətin yenidən təşkili üzrə layihələrə start verilib.***

"Unikal" xəbər verir ki, yol hərəkətinin təkmilləşdirilməsi, sıxlıq və tıxac hallarının aradan qaldırılması məqsədilə Bakı şəhərində mərhələli şəkildə 7 layihə icra olunacaq. İlkin olaraq, Babək prospekti ilə Mikayıl Əliyev küçəsinin kəsişməsində darboğazın aradan qaldırılması, piyadaların və sürücülərin təhlükəsiz hərəkətinin təmin edilməsi üçün yol hərəkəti yenidən təşkil edilir.

AYNA tərəfindən ərazidə yol infrastrukturu və nəqliyyat axını təhlil edilib. Təklif layihəsi hazırlanaraq Nəqliyyatı Əlaqələndirmə Şurasına təqdim olunub və müvafiq qaydada razılaşdırılıb. Artıq icrasına başlanılan layihə çərçivəsində Babək prospektinin köməkçi hərəkət hissəsi ilə Yeni Günəşli qəsəbəsi istiqamətindəki nəqliyyat vasitələri və dairədəki nəqliyyat vasitələri arasında hərəkət növbəliliyinin təmin edilməsi üçün işıqforla nizamlanan, dairəyə daxil olan digər istiqamətlərdə isə dairəvi hərəkətin təşkili nəzərdə tutulur. Babək prospektinin köməkçi yolu ilə Mikayıl Əliyev küçəsi və şəhər mərkəzi istiqamətində hərəkət edən nəqliyyat axınlarını bir-birindən ayıran yarımdairə ləğv edilərək vahid dairə ilə əvəz olunacaq. Piyadaların yolu təhlükəsiz şəkildə keçmələrini təmin etmək üçün bütün istiqamətlərdə əlçatan piyada keçidləri təşkil ediləcək. Həmçinin ərazidə norma və qaydalara uyğun yol nişanlanması da aparılacaq.

Nəticədə Babək prospektinin Mikayıl Əliyev küçəsi ilə kəsişməsində günün əsasən pik, bəzən hətta qeyri-pik saatlarında müşahidə olunan tıxac və sıxlıq halları aradan qaldırılacaq, kəsişmədə hərəkət növbəliliyi təmin ediləcək. Bununla da piyadaların və sürücülərin təhlükəsizlik səviyyəsi artırılacaq.

15_27 IYUl-QARA.qxd 5/16/2024 11:04 PM Page 6



# Azərbaycan-Belarus Prezidentləri arasında görüş keçirildi

## Hər iki dövlətin rəsmiləri arasında mühüm sənədlər imzalandı

***Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə geniş tərkibdə görüşü keçirilib.***

"Unikal" xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

- Hörmətli Aleksandr Qriqoryeviç. Hörmətli qonaqlar. Sizi bir daha Azərbaycanda salamlayıram. Çox şadam ki, mənim dəvətimi qəbul etmisiniz və ölkəmizə dövlət səfərinə gəlmisiniz. Bir çox məsələlər - ikitərəfli gündəlik, regional və beynəlxalq məsələlər üzrə ətraflı danışdıq. Münasibətlərimizin strateji xarakterini bir daha təsdiq etdik. Ölkələrimiz arasında etimada, qarşılıqlı hörmətə, dostluğa və əməkdaşlığa əsaslanan kreativ tərəfdaşlığı çox yüksək qiymətləndiririk. Bu münasibətlər zamanın sınağından çıxıb və zənnimcə, Belarus ilə Azərbaycanın etibarlı dost olmaları heç kimdə şübhə doğurmur. Bu, dövlətlərarası münasibətlərimizin əsasıdır, çünki yalnız qarşılıqlı etimad şəraitində həmişə bütün vəziyyətlərdə ikitərəfli dəstəyə arxalanaraq irəliləmək mümkündür. Nümayəndə heyətlərinin üzvləri dünən görüşüblər və bildiyimə görə, təmaslar çox səmərəli, müsbət olub. Həlli vacib olan çoxlu məsələlər var. Qarşılıqlı fəaliyyətimizin perspektivlərinə baxdıqda böyük potensialı, əmtəə dövriyyəsinin artmasını və sənaye kooperasiyasının, kənd təsərrüfatında əməkdaşlığın genişləndirilməsini görürük. Əlbəttə ki, biz azad edilmiş ərazilərin bərpasında Belarus şirkətlərinin, müəssisələrinin iştirakına şad olardıq. Nümayəndə heyətlərinin üzvləri bu məsələni də müzakirə ediblər. Nümayəndə heyətlərinin tərkibi də çox mətləblərdən xəbər verir. Məhz gündəlikdə olan məsələlərdən danışılıb. Amma, əlbəttə, nümayəndə heyətlərinin üzvlərinin cavabdeh olduqları məsələlərlə kifayətlənmək olmaz. Belə ki, əməkdaşlığımız yetərincə çoxplanlıdır, yaxşı keçmişə və yaxşı gələcəyə malikdir. Aleksandr Qriqoryeviç, bir daha Sizi salamlayıram. Sizə dost ölkə olan Azərbaycanda yaxşı vaxt keçirməyinizi arzulayıram.

**Prezident Aleksandr Lukaşenko dedi:**

- İlham Heydər oğlu, çox sağ olun. Həqiqətən bizim bağlı mövzumuz yoxdur. Bizdə hər şey açıqdır. Biz müzakirə aparırıq, hətta kimsə hansısa məsələlər barədə eşidirsə, onlar münasibətlərimizin necə olduğu barədə düşünürlər. Münasibətlər çox səmimi, çox yaxındır, biz qardaş kimi ünsiyyət qururuq. Dünyanı eyni şəkildə anlayır, onun haraya doğru getdiyini başa düşürük. Bilirsiniz, Sizə təkbətək görüş zamanı Heydər Əliyev haqqında danışmışdım, kaş ki, o, Azərbaycanın necə inkişaf etdiyini və uğurlarını görəydi. Mən bir daha düşündüm və müharibədən əvvəl, Sizin azadlıq müharibənizdən öncə söhbətimizi xatırladım. Həmin vaxt biz nahar süfrəsi arxasında ikilikdə fəlsəfi fikir yürüdürdük və belə nəticəyə gəldik ki, müharibədə qələbə çalmaq olar. Bu vacibdir, Qələbəni qoruyub saxlamaq daha vacibdir. Üçüncüsü isə, Sizin də bu mövzuya toxunduğunuz kimi, biz ümumi fikrə gəldik ki, müharibədən sonra ən ağır dövr başlayacaq, azad etdiyiniz torpaqları dirçəltməyə, bərpa etməyə başlamaq lazım gələcək. Həmin ağır dövr gəlib çatdı, bu torpaqları dirçəltmək, insanları artıq qaytarmaq, - onların bəziləri şəhərdə anadan olub, - lazımdır və belə də olacaq. Qələbə çaldınız və onu qoruyub saxladınız. İndi dirçəliş dövrüdür. Bu, zaman, böyük zəhmət tələb edir, beş və ola bilər ki, on il ərzində həmin işlər yerinə yetirilməlidir.

İlham Heydər oğlu, ona görə də biz kömək göstərə və bu prosesdə iştirak edə bilərik. Sizin kifayət qədər köməkçiləriniz var, amma biz bir dost kimi bu prosesdə texnika, aqroşəhərciklər, iş yerləri ilə iştirak edə bilərik. İnsanları köçürmək, qaytarmaq olar, amma bunun üçün mənzillər, iş yerləri lazımdır. Bizim müəyyən texnologiyalarımız var, Sizin mütəxəssisləriniz, nazirləriniz bu texnologiyalara yaxşı bələddirlər. Əgər işə yarayarsa texnikamız burada olar və işləyər.

Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olub. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov və Belarus Respublikası Dövlət Gömrük Komitəsinin sədri Vladimir Orlovski "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında malların mənşəyinin sertifikatlaşdırılmasının elektron sisteminin qarşılıqlı tətbiqi haqqında Protokol"u imzaladılar.

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov və Belarus Respublikasının kənd təsərrüfatı və ərzaq naziri Sergey Bartoş "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə əlavə və dəyişikliklər edilməsinə dair Protokol"u və "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə əlavə və dəyişikliklər edilməsinə dair Protokol"u imzaladılar.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Belarus Respublikasının xarici işlər naziri Sergey Aleynik "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Belarus Respublikasının İdman və Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlığın inkişafına dair 2024-2025-ci illər üzrə Tədbirlər Planı"nı imzaladılar.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Belarus Respublikasının antiinhisar tənzimləmə və ticarət naziri Aleksey Boqdanov "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Belarus Respublikasının Antiinhisar Tənzimləmə və Ticarət Nazirliyi arasında rəqabət siyasəti, dövlət satınalmaları, istehlakçı hüquqlarının müdafiəsi və reklam fəaliyyəti sahələrində qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Memorandum"u imzaladılar.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Belarus Respublikasının "Milli İnvestisiya və Özəlləşdirmə Mərkəzi" Dövlət Müəssisəsinin direktoru Dmitri Krasovski "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Belarus Respublikasının İqtisadiyyat Nazirliyinin "İnvestisiya və Özəlləşdirmə Milli Agentliyi" Dövlət Müəssisəsi arasında Anlaşma Memorandumu"nu imzaladılar.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Minsk Şəhər İcra Komitəsinin sədri Vladimir Kuxaryov "Bakı şəhəri (Azərbaycan Respublikası) ilə Minsk şəhəri (Belarus Respublikası) arasında qardaşlaşma əlaqələrinin qurulmasına dair Memorandum"u imzaladılar.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və Qomel Şəhər İcra Komitəsinin sədri Vladimir Privalov "Gəncə şəhəri (Azərbaycan Respublikası) ilə Qomel şəhəri (Belarus Respublikası) arasında qardaşlaşma əlaqələrinin qurulmasına dair Anlaşma Memorandumu"nu imzaladılar.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və Qrodno şəhər İcra Komitəsinin sədri Andrey Xmel "Qəbələ şəhəri (Azərbaycan Respublikası) ilə Qrodno şəhəri (Belarus Respublikası) arasında qardaşlaşma əlaqələrinin qurulmasına dair Anlaşma Memorandumu"nu imzaladılar.





# Baş prokuror Düşənbədə səfərdədir

***Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Tacikistan Baş prokuroru Yusuf Raxmonun dəvətilə İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin baş prokurorlarının 5-ci iclasında iştirak etmək məqsədilə Düşənbəyə səfərə gedib.***

Bu barədə "Unikal"a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, səfər çərçivəsində nümayəndə heyətlərinin rəhbərləri Tacikistan Prezidenti Emomali Raxmon tərəfindən qəbul ediliblər. Prezident iclasın işinə uğurlar arzu edərək İƏT-ə üzv dövlətlər arasında hüquq mühafizə sahəsində əməkdaşlığın önəmini, xüsusən cinayətkarlığa qarşı mübarizədə birgə səylərin regionda sabitliyin və təhlükəsizliyin qorunmasında prokurorluq orqanlarının rolunu qeyd edib.

Daha sonra İƏT-ə üzv dövlətlərin baş prokurorlarının 5-ci iclası keçirilib. İclası giriş nitqi ilə açan Tacikistanın Baş prokuroru Yusuf Raxmon qonaqları salamlayaraq tədbirin əhəmiyyətini və beynəlxalq əməkdaşlığın mahiyyətini qeyd edib.

Baş prokuror Kamran Əliyev çıxışında Azərbaycan Prezidenti I?lham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində aparılan köklü islahatlar barədə danışaraq terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə mo?vzusunda c?ıxış? edib. Ölkəmizin terrorçuluğa qarşı mübarizə üzrə mövcud 12 beynəlxalq konvensiyaya qoşulduğunu, həmçinin milli qanunvericiliyin mövcud beynəlxalq standartlara uyğunlaşdırıldığını bildirib.

Kamran Əliyev torpaqlarımızın bir hissəsini uzun illər işğal altında saxlamış Ermənistanın bu ərazilərdə mina terrorunun müəllifi olduğunu qeyd edərək, işğal dövründə 1.5 milyondan çox mina basdırıldığını, birinci və ikinci Qarabağ müharibəsindən bu günə kimi təxminən 3500 nəfər azərbaycanlının minadan zərər çəkdiyini, 4000 şəxsin itkin düşdüyünü, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə kütləvi insan qalıqlarının aşkar edildiyi barədə ətraflı məlumat verib, terrorçuluqla mübarizədə səylərin beynəlxalq səviyyədə birləşdirilməsinin zəruriliyindən bəhs edib.

Eyni zamanda, Kamran Əliyev cari ilin sentyabr ayında Azərbaycanın Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağına, noyabr ayında isə dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a ev sahibliyi edəcəyini bildirib.

Yüksək səviyyəli iclasda İƏT-in Baş katibi, Türkiyə, Özbəkistan, İran, Qazaxıstan, Tacikistan, Pakistan, Qırğızıstan, Türkmənistan və qonaq qismində dəvət olunmuş Səudiyyə Ərəbistanı Krallığının prokurorluq orqanlarının rəhbərləri iştirak ediblər.

Nümayəndə heyətinin Tacikistana səfəri davam edir.

15_27 IYUI-QARA.qxd 5/16/2024 11:04 PM Page 7





## Rəsmi Bakıdan Fransanın daxili işlər nazirinə cavab

***Fransanın daxili işlər naziri Jerar Darmaninin 16 may 2024-cü il tarixində "France-2" telekanalına müsahibəsində ölkəmizə qarşı, eləcə də Azərbaycanla Yeni Kaledoniyanın müstəqillik liderləri arasında iddia edilən münasibətlərə dair səsləndirdiyi növbəti əsassız fikirləri tamamilə rədd edirik.***

"Unikal" xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadənin Fransanın daxili işlər naziri Jerar Darmaninin "France-2" telekanalına müsahibəsində Azərbaycana qarşı səsləndirdiyi iddialara dair şərhində bildirilib.

"İlk növbədə, Fransa tərəfinin Azərbaycana qarşı təhqiramiz ifadələrini bir daha qətiyyətlə pisləyir və ermənilərin kütləvi şəkildə qətlə yetirilməsi kimi qəbuledilməz ittihamlarla Azərbaycana qarşı apardığı qarayaxma kampaniyasını dayandırmağı tələb edirik.

Fransa daxili işlər nazirinin öz ölkəsinin uzun illər həyata keçirdiyi müstəmləkəçilik siyasətinin tərkib hissəsi kimi yerli xalqlara qarşı insanlıq əleyhinə cinayətlər törətməsini, milyonlarla günahsız insanın vəhşicəsinə qətlə yetirilməsi tarixini xatırlaması daha münasib olardı.

Onunla yanaşı, Fransanın daxili işlər naziri Azərbaycanı Yeni Kaledoniyada müstəqillik tərəfdarı etirazları dəstəkləməkdə ittiham etmək əvəzinə, ölkəsinin bu cür etirazlara səbəb olan dənizaşırı bölgələri ilə bağlı uğursuz siyasətinə diqqət yönəltməlidir. Biz bir daha Fransanı ölkəmizə qarşı əsassız iddiaları dayandırmağa çağırırıq", - XİN rəsmisi qeyd edib.

## Bu ilin sonunda Qubadlıya ilk köç olacaq




***Bu ilin sonunadək Qubadlı rayonunun iki kəndinə ilk köç nəzərdə tutulub.***

"Unikal" xəbər verir ki, bu barədə report-un sorğusuna cavab olaraq Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Beynəlxalq əməkdaşlıq və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İbrahim Mirzəyev deyib.

Onun sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, ilk növbədə, müasir infrastruktur formalaşdırılır, dayanıqlı məskunlaşma və iqtisadi reinteqrasiya üçün zəruri şərait yaradılır: "Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Qubadlı rayonunun Zilanlı kəndinə 134, Mahruzlu kəndinə isə 93 ailənin köçürülməsi planlaşdırılır".

İ.Mirzəyev, həmçinin qeyd edib ki, bu il işğaldan azad olunan Ağdam rayonunun üç kəndinə də ilk köçün olması nəzərdə tutulur: "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində Ağdam rayonunun Kəngərli, Xıdırlı və Sarıcalı kəndləri yenidən salınır. Bu ilin sonuna qədər Kəngərli kəndinə 292, Xıdırlı kəndinə 719, Sarıcalı kəndinə isə 203 ailənin köçürülməsi nəzərdə tutulur. Hazırda Dövlət Komitəsinin aidiyyəti struktur bölməsi tərəfindən respublikanın müxtəlif bölgələrində məskunlaşmış məcburi köçkünlər arasında sorğular həyata keçirilir. Doğma yurda qayıdacaq ailələrin sayı və tərkibi dəqiqləşdirilir, sosial vəziyyəti və məşğulluq imkanları qiymətləndirilir, eləcə də məlumatlandırma, təbliğat-təşviqat işləri aparılır və köçürülmənin texniki-təşkilati məsələləri həll olunur".

# "Dörd kənd məsələsi prinsipial olaraq həll edilib"

## Aydın Mirzəzadə: "Əgər Ermənistan rəsmi surətdə kəndləri verməkdən imtina edəcəksə, onda Azərbaycan həmin kəndləri qaytarmaq hüququnu özündə saxlayır"

***Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Rusiya sülhməramlı kontingentinin missiyasının başa çatmasından, Ermənistan-Azərbaycan arasında sülh sazişinin nə zaman imzalanacağından, Azərbaycanın 8 kəndi ilə bağlı məsələdən və Ermənistanda keçirilən aksiyalardan danışıb.***

***-Aydın müəllim, mayın 15-də Xocalıda Rusiya sülhməramlı kontingentinin missiyasının başa çatmasına həsr olunmuş təntənəli mərasim keçirilib. Azərbaycan ərazisində müvəqqəti olaraq yerləşdirilmiş sülhməramlıların vaxtından əvvəl çıxarılmasını necə qiymətləndirirsiz?***



-Rusiya sülhməramlı qüvvələri üzərinə düşən vəzifəni yerinə yetirib və bundan sonra onların yerinə yetirəcəyi vəzifə qalmadığına görə vaxtından əvvəl Azərbaycan ərazisini tərk etdilər. Azərbaycan sülhməramlıların burada qalmasına heç bir ehtiyac duymadı. İki ölkə rəhbərliyi arasında danışıqlar sülhməramlıların tədricən çıxarılmasına, mayın 15-də isə son yolasalma mərasiminin keçirilməsinə səbəb oldu. Azərbaycan beynəlxalq öhdəliklərə həmişə hörmətlə yanaşır, eyni zamanda, ölkəsinin suverenliyini, müstəqilliyini üstün tutur. Beynəlxalq hüquq normalarına əsaslanaraq ərazi bütövlüyümüz təmin edildi, işğalçı qoşun Azərbaycan ərazisindən çıxarıldı və xarici ölkə silahlı qüvvələrinin hansısa bir statusda Azərbaycanda qalmasına ehtiyac olmadı. Bununla da Azərbaycan dövlətçiliyinin bu mərhələsi başa çatdı. Bundan sonra ərazi bütövlüyümüzü, suverenliyimizi yüksək səviyyədə qorumaq bacarığına malikik. Bunu həmişə həyata keçirəcəyik.

***-Ermənistanın baş naziri Nikol Paşinyan Kopenhagen Demokratiya Sammitində çıxışı zamanı bildirib ki, Azərbaycanla əldə olunan razılaşmaların sülh müqaviləsinə daxil edilməsinin və onun imzalanmasının vaxtı çatıb. Dəfələrlə bu istiqamətdə fikirlər səsləndirilib. Tezliklə sülh müqaviləsi imzalana bilər?***

-Hər şey bütün əsas məsələlərin razılaşmasının sona çatmasından asılıdır. Bu, sabah və ya bir ildən sonra da ola bilər. Məsələ ondan ibarətdir ki, hər iki tərəf sülh müqaviləsinin imzalanmasını istəyir. Doğrudur, Ermənistan tərəfindən vaxtaşırı ziddiyyətli bəyanatlar verilir. Və yaxud əsası olmayan iddialar səsləndirilir. Amma Azərbaycan təmkinlə beynəlxalq hüquqa əsasən öz hüquqlarını, suverenliyini qorumağı bacarır. Baş nazirlərin müavinləri və XİN rəhbərləri səviyyəsində intensiv görüşlər keçirilir. Bu ona gətirib çıxarır ki, tərəflər addım-addım sülh müqaviləsinə yaxınlaşırlar. Vacib məqamlardan biri bu danışıqların vasitəçisiz keçirilməsidir. Müəyyən müddətdən sonra görüşlər Ermənistan-Azərbaycan sərhədində və yaxud qarşılıqlı razılaşma ilə Tbilisidə də keçirilə bilər.

***-Bir neçə müddətdir Azərbaycanın 8 kəndinin qaytarılması əsas müzakirə mövzusudur. İlk olaraq 4 kəndin məsələsi öz həllini tapdı. Digər 4 kəndlə bağlı məsələ nə zaman yekunlaşacaq?***

-Dörd kənd məsələsi prinsipial olaraq həll edilib. Ermənistan tərəfi həmin kəndləri boşaltmaq öhdəliyini götürüb. Bu, beynəlxalq hüquqla Azərbaycan ərazisidir. Həmin kəndin əhalisinin kənardan gəlmə insanlarla təxribatçı çıxışları isə Ermənistan hakimiyyətinin məsuliyyətindədir. Onlar bu məsələni həll etməlidirlər. Ermənistan tərəfindən bu məsələdən imtina olarsa, o zaman Azərbaycan öz hüquqlarını qorumağın yolunu tapacaq. O ki, qaldı digər 4 kənd məsələsinə, onlar sərhədimizə bitişik deyil. Müəyyən prosedur və texniki çətinliklər var. Bununla bağlı da danışıqlar gedir. Azərbaycanın 3-ü Qazax, 1-i isə Naxçıvanın kəndi olmaqla həmin 4 kənd məsələsi də ərazi bütövlüyümüz çərçivəsində öz həllini tapacaq.

***- Ermənistan və Azərbaycan sərhədlərin delimitasiyası prosesinə başlamaq barədə razılığa gəldikdən sonra Nikol Paşinyana qarşı etiraz aksiyaları keçirilir. Onlar bu aksiyaları keçirməklə nəyə nail olmaq istəyirlər?***

-Nail olmaq istəyirlər, amma ola bilməyəcəklər. Onların beynindən xaricdəki müəyyən dairələrin dəstəyi ilə Ermənistanın Azərbaycan torpaqlarına iddiasının vaxtaşırı reallaşması keçir. Vaxtilə həmin dəstəklə Azərbaycan torpaqlarına köçürüldülər. Qərbi Azərbaycanda Ermənistan dövləti yaradıldı. 1918-ci ildən sonra hissə-hissə torpaqlarımız Ermənistana verildi. Həmin ab-hava hələ də Ermənistan cəmiyyətinin müəyyən bir hissəsinin beynindən çıxmayıb. Onlar hay-küylə yenidən həmin dövrü qaytarmaq istəyirlər. Amma zaman dəyişib və yeni reallıq yaranıb. Onların bu cür mitinq keçirmələrinin Azərbaycanın öz ərazi bütövlüyünü tam təmin etməsinə hər hansı təsiri olmayacaq. Ermənistan daxilindəki bütün bu qanunsuzluqlara münasibət bildirsin və məsələni həll etsin. Əgər Ermənistan rəsmi surətdə kəndləri verməkdən imtina edəcəksə, onda Azərbaycan həmin kəndləri qaytarmaq hüququnu özündə saxlayır.

***Anar Kəlbiyev***

# Elman Rüstəmovla bağlı yeni iddia

## Sabiq baş bankir bu vəzifədən getsə də, biznesini necə qoruyub saxlaya bilir?

***Azərbaycanda yüksək post sahiblərinin bir çoxu bu və ya digər dərəcədə biznes imkanlarına sahibdirlər. Lakin təcrübədə onların tutduqları vəzifələrdən uzaqlaşınca öz bizneslərini ya tamamilə, ya da əhəmiyyətli dərəcədə itirdiyi kimsəyə sirr deyil. Bununla belə, deyəsən, istisnalar da var axı...***

Gəlin tələsməyək və bu yaxınlarda ölkə mətbuatının diqqət çəkdiyi maraqlı bir məqama birlikdə göz ataq. Belə ki, ötən ilin yekunlarına görə, “Bank Respublika”nın ümumi gəlirləri 230 milyon 602 min manat təşkil edib. Bank bu göstərici üzrə ölkənin bank sistemində 5-ci yeri tutub.



O da aydınlaşıb ki, hesabat dövründə bankın gəlirlərinin164 milyon manatı və ya bütün gəlirlərin 71%-i kredit portfelinin gəlirlərindən formalaşıb. Komissiya haqlarından 30 milyon manat daxil olub. Bu, bankın bütün gəlirlərinin 13%-i deməkdir. Valyuta əməliyyatlarından gəlirləri 11 milyona yaxın, yəni, ümumi gəlirlərin 5%-i həcmində olub. Qiymətli kağızlar bazarına yatırımlardan isə bankın gəlirinin 5 milyon manata yaxın olduğu göstərilir. Başqa banklara və maliyyə təşkilatlarına ayırdığı depozitlərdən bank 12 milyon qazanıb. Bankın digər faiz gəlirləri isə 7 milyondan çox olub.

Bütün bunlar Azərbaycan bank sektoru səviyyəsində kifayət qədər yüksək göstəricilərdir. Bəs həmin rəqəmləri maraqlı edən nədir?

Məsələ ondadır ki, uzun illərdir ”Bank Respublika” ölkə mətbuatında Azərbaycan Mərkəzi Bankının (AMB) keçmiş sədri Elman Rüstəmova aid edilir. Azpolitika.az-ın yazdığı kimi, 2015-ci il devalvasiyasından sonra bu sarsıdıcı zərbədən “üzüağ çıxan” az sayda banklardan biri də “Bank Respublika” olmuşdu. Bu da təsadüfi deyildi, çünki bank sektorundakı mənbələrin mətbuata bildirdiyinə görə, onun arxasında, daha doğrusu başında, AMB-nin o vaxtkı sədri Elman Rüstəmov dururdu... Sitat: ”Nəticədə “Bank Respublika” ASC-nin də digər banklar kimi zərərinin artmasına və bu səbəbdən məcmu kapitalının aşağı düşməsinə baxmayaraq, bank öz fəaliyyətində elə də böyük problem yaşamadı. Rüstəmov sahibi olduğu bankı bir çox tanınmış özəl banklar kimi iflas və müflis olmaq təhlükəsindən xilas etməyə nail oldu...”

Xatırladaq ki, hələ 1992-ci ildə yaradılan bu bankın rəsmən səhmdarları Quliyevlər ailəsidir. İllər öncə mətbuatın yazdığına görə, əsas səhmdarlar - Natiq Quliyev, onun qardaşları Elçin və Namiq Quliyevlə birlikdə Elman Rüstəmovun yaxın adamları (yerli və qohum olduqları deyilir) olmaqla onun Azərbaycanda müxtəlif sahələrə aid biznesini idarə edirlər. Bura Rüstəmova aid bəzi maşın salonları, restoranlar, şadlıq evləri, quşçuluq təsərrüfatı və sair aid olunur...

N.Quliyev illər əvvəl KİV-ə açıqlamasında Rüstəmovla yaxın münasibətlərini inkar etməyib, bununla belə, ”Bank Respublika”nın onunla bağlılığını yalanlayıb. Lakin buna baxmayaraq bank sektorundakı mənbələr sabiq baş bankiri adıçəkilən bankın qeyri-rəsmi sahibi kimi təqdim eləməkdə davam edirlər. Belədə ortaya maraqlı sual çıxır: Elman Rüstəmov AMB sədri vəzifəsindən çıxarılsa da, nə əcəb ”Bank Respublika”nın sektordakı yüksəlişi səngiməyib, əksinə güclənib? Düzdür, o, hazırda Baş nazirin müşaviri postunu tutur, lakin bir çoxları həmin vəzifənin simvolikliyinə diqqət çəkirlər. Lakin görünən odur ki, heç də belə deyil - ”Bank Respublika”nın fəaliyyəti baxımından Baş nazirin müşaviri vəzifəsinin rolu kifayət qədər əhəmiyyətli, bəlkə də həlledicidir. Niyə? Azpolitika-nın yazdığına görə, çünki bank sektoruna aid bundan əvvəlki nümunələr göstərir ki, bankların vəzifədə olan “şef”lərinin “vurulması”ndan sonra qəsdən, yaxud obyektiv olaraq onların durumları tədricən, yaxud dərhal ağırlaşır. Bir çox hallarda həmin banklar ya bağlanır, ya “sürünür”, ya da əl dəyişir. Buna Fazil Məmmədovun “Ata bank”-ı, Heydər Babayevin “Bank Standard”ı başda olmaqla bir çox nümunələr göstərmək olar.

O cümlədən də keçmiş Prezident Aparatı başçısı Ramiz Mehdiyevin ailə bankı olan “Bank BTB” nümunəsi var. Mehdiyev vəzifədən ayrıldıqdan sonra bankın xalis mənfəəti demək olar, dərhal 16 milyon 653 min manat azalmış və 2020-ci ilin sonunda 9 milyon 130 min manatlıq zərərə düşmüşdü.

Belə çıxır ki, iki il əvvəl AMB sədrliyindən azad edilən Elman Rüstəmovun tamamilə vurulmaması, nüfuz, təsir imkanları baxımından baş bankir postu ilə müqayisəyə gəlməsə belə, hər halda hökumətdə müəyyən vəzifə tutması ona öz biznesini qoruyub-saxlamaq, hətta daha da inkişaf etdirmək imkanı tanıyıb.

***Sənan Mirzə***

# Lalə Şövkət deputatlığa namizəd olmayacaq



***VII çağırış Milli Məclisə seçkilərin vaxtı yaxınlaşdıqca, tanınmış simaların deputatlığa namizəd olub-olmayacağı da gündəmə gəlir.***

İctimaiyyət yeni formalaşacaq parlamentin tərkibinin Qarabağ münaqişəsindən sonra yaranan yeni dövrə uyğun olacağını gözləyir.

Bu ilin avqust-sentyabr aylarında keçiriləməsi gözlənilən seçkilərə isə çox az qalır.

Fəaliyyəti dayanmış Azərbaycan Liberal Partiyasının (ALP) keçmiş lideri Lalə Şövkətin deputatlığa namizədliyini irəli sürübsürməyəcəyi barədə modern.az-a açıqlamasında Lalə Şövkət qarşıdan gələn parlament seçkilərində iştirak etməyəcəyini bildirib. ”Parlament seçkilərində namizəd olmağı planlaşdırmıram”, - o deyib.

# Suriyada qanunsuz hərbi birləşmələrdə döyüşən 13 nəfərə hökm oxundu



***Xarici ölkə ərazisində qanunsuz silahlı birləşmələrə qoşulmaqda ittiham olunan Azərbaycan vətəndaşlarının cinayət işi üzrə məhkəmə istintaqı yekunlaşıb.***

”Unikal”ın məlumatına görə, bu barədə qərar Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Əhməd Quliyevin sədrliyi ilə keçirilən iclasda qəbul edilib. Sonra ittiham nitqi ilə çıxış edib.

Prokuror məhkəmədən təqsirləndirilən şəxslər - Şəmil Abdullayev 8 il 6 ay, Murad Ağamətov 8 il 6 ay, Murad Quliyev 8 il 6 ay, Fərhad Rüstəmov 8 il 6 ay, Sultan Sultanov 8 il 6 ay, Nəcməddin Hüseynov 8 il 6 ay, Hikmət Mahmudov 8 il 6 ay, Mais Əliyev 8 il 6 ay, İsmayıl İsmayılov 7 il 6 ay, Şəhriyar Babayev 9 il, Hacı Muradov 8 il 6 ay, Əlövsər Baxışov 9 il və İntiqam Əsədovun 8 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Sonra təqsirləndirilən şəxslərin müdafiə çıxışları olub. Daha sonra məhkəmə tərkibi hökmü elan etmək üçün müşavirə otağına gedib. Müşavirədən sonra hökm elan edilib.

Hökmə əsasən, təqsirləndirilən şəxslər - Şəmil Abdullayev 7 il, Murad Ağamətov 7 il, Murad Quliyev 7 il, Fərhad Rüstəmov 7 il, Sultan Sultanov 7 il, Nəcməddin Hüseynov 7 il, Hikmət Mahmudov 7 il, Mais Əliyev 7 il, İsmayıl İsmayılov 7 il, Şəhriyar Babayev 7 il, Hacı Muradov 7 il, Əlövsər Baxışov 7 il və İntiqam Əsədovun 7 il müddətinə azadlıqdan məhrum ediliblər.

Qeyd edək ki, ötən ilin iyun ayında Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) yaydığı məlumatda deyilir ki, aparılmış araşdırmalar nəticəsində Azərbaycan vətəndaşlarından ibarət, ölkə hüdudlarından kənarda terror aktlarının törədilməsi ilə müşayiət olunan, dini düşmənçilik, dini radikalizm və dini fanatizm zəminində aparılan silahlı münaqişələrdə iştirak etmək məqsədilə qeyri-leqal yollarla Suriya Ərəb Respublikasının ərazisinə keçdikdən sonra həmin dövlətin İdlib şəhərində xüsusi hazırlıq düşərgəsində təlimlərə cəlb olunaraq müxtəlif növ odlu silahlardan istifadə qaydalarına yiyələnib, “Taifatul Mansura” adlı qanunsuz silahlı dəstənin tərkibində döyüşlərdə iştirak etmiş sabit qrupun üzvləri müəyyən olunmuş və barələrində beynəlxalq axtarış elan edilib.

Başlanılmış cinayət işi üzrə həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri ilə yuxarıda qeyd olunan cinayət əməllərini törətmiş 13 nəfər Azərbaycan vətəndaşının - Abdullayev Şəmil Töhüd oğlu, Ağamətov Murad Əlibala oğlu, Quliyev Murad Firudin oğlu, Rüstəmov Fərhad İsə oğlu, Sultanov Sultan İdris oğlu, Hüseynov Nəcməddin Nəzir oğlu, Mahmudov Hikmət Sahib oğlu, Əliyev Mais Telman oğlu, İsmayılov İsmayıl Aydın oğlu, Babayev Şəhriyar Rahim oğlu, Muradov Hacı Arif oğlu, Baxışov Əlövsər Əlisafa oğlu və Əsədov İntiqam Şirin oğlunun xarici ölkə ərazisində gizləndikləri yerlər müəyyənləşdirilib və onlar beynəlxalq axtarışa dair qarşılıqlı hüquqi yardım proseduru çərçivəsində müvafiq tədbirlərlə saxlanılaraq Azərbaycana gətiriliblər.

Sözügedən şəxslər Cinayət Məcəlləsinin 283-1.3-cü (Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmək məqsədilə sabit qruplar yaratma, həmin qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunaraq, məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilib.

***Azər İsrafilov***

15_27 IYUl-QARA.qxd 5/16/2024 11:05 PM Page 9



# Pensiyalar nə qədər artıb? - Statistika Komitəsindən açıqlama



***Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ilkin məlumatlarına əsasən, cari ilin yanvar-mart aylarında pensiya və müavinətlərin maliyyələşdirilməsinə yönəldilmiş vəsaitin məbləği ötən ilin müvafiq dövrünə nisbətən 13,8 faiz artırılaraq 1652,1 milyon manata çatdırılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.

Bildirilib ki, sərf olunmuş vəsaitin 97,6 faizini pensiya xərcləri təşkil edib. 2024-cü il aprelin 1-i vəziyyətinə Dövlət Sosial Müdafiə Fondunda 1097,3 min nəfər pensiyaçı qeydiyyatda olub ki, bu da ölkə əhalisinin 10,8 faizini təşkil edir.

Onların 64,2 faizi yaşa, 23,5 faizi əlilliyə, 12,3 faizi isə ailə başçısını itirməyə görə pensiya alır. Təyin olunmuş pensiyaların orta aylıq məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,5 faiz, cari ilin əvvəli ilə müqayisədə isə 11,2 faiz artaraq 490,7 manat təşkil edib və orta aylıq əmək haqqının 49,8 faizinə bərabər olub.

# Ev üçün şirkətlə müqavilə bağladı - 8 ildir evini ala bilmir



***Bakıda MTK tərəfindən evi sökülən vətəndaş ona vəd edilən yeni evi illərdir ala bilmir.***

Bu barədə Cəbrayıl rayonundan məcburi köçkün olan vətəndaş İlham Məmmədov "Unikal"a müraciət edib. O bildirib ki, Nərimanov rayonu, Şirin Mirzəyev küçəsi 58 ünvanında yerləşən mənzili ilə bağlı "İnteks" MMC şirkəti ilə 2016-cı ilin may ayında müqavilə bağlayıb:

"Şirkət binanı söküb, yerində yeni 16 mərtəbəli bina tikməli və sakinləri həmin binada mənzillərlə təmin etməli idi. Mənim həmin binada 2 otaqlı evim var idi. Qeyd etdiyim tarixdə "İnteks" MMC ilə müqavilə imzaladım, bir müddət sonra binanı sökdülər.

Müqaviləyə əsasən, şirkət mənə həmin binadan 2 otaqlı təmirli mənzil verməli idi. Bina tikilib sakinlər üçün təhvil veriləndən sonra mənə mənzil verməkdən imtina etdilər".

İlham Məmmədov deyib ki, o, əvvəl Azərbaycan Dövlət Neft Şirkətində işləyib: "Həmin ev də mənə illər əvvəl Neft Şirkəti tərəfindən verilmişdi. Şirkət isə müqavilənin tələblərini pozdu və mənə yeni binadan ev verməkdən imtina etdi. Bu məsələ ilə bağlı Nərimanov Rayon Məhkəməsinə müraciət etdim. Məhkəmə qərar verdi ki, müqaviləni "İnteks" MMC bağlayıb və adıçəkilən şirkət məni 2 otaqlı evlə təmin etməlidir. "İnteks" MMC apellyasiya və daha sonra kassasiya şikayəti verdi. Həm Bakı Apellyasiya Məhkəməsi, həm də Ali Məhkəmə qərarı qüvvədə saxladı. 2021-ci ildə Ali Məhkəmənin qərarı qüvvədə saxlamasından sonra iş icra şöbəsinə yönləndirildi. Bu işə Nərimanov rayon icra şöbəsində əvvəl Vüsal adlı şəxs baxırdı. 2024-cü ildə isə iş icra şöbəsinin digər əməkdaşı Zaur Əlizadəyə ötürüldü. Bütün bunlara baxmayaraq, 2021-ci ildən bugünədək icra şöbəsinin əməkdaşları bu məsələni həll etmirlər. 2021-ci ildə, yəni Ali Məhkəmənin də qərarından sonra şirkət mənə ev ayırdı, amma onlar 1 otaqlı evi 2 otaqlı adı ilə təqdim etdilər. Belə ki, mənim əvvəlki evim 2 otaqlı idi və şirkətlə aramızda imzalanan müqavilədə də ev 2 otaqlı olaraq qeyd edilmişdi. Təbii ki, mən bununla razılaşmadım və evi qəbul etmədim. İşi Layihə İnstitutuna verdilər ki, evin neçə otaqdan ibarət olması dəqiqləşdirilsin. Həmin qurum da təyin etdi ki, mənə verilən ev 1 otaqlıdır".

Şikayətçi qeyd edib ki, icra şöbəsi şirkət barəsində inzibati qaydada protokol tərtib olunması ilə bağlı Nərimanov Rayon Məhkəməsinə müraciət edib: "Məhkəmə də qərar çıxardı ki, burada inzibati xəta yoxdur. Mən yenidən apellyasiya şikayəti verdim. Apellyasiya məhkəməsi qərar verdi ki, "İnteks" MMC 1200 manat cərimələnsin və məni 2 otaqlı evlə təmin etsin.Mart ayında şirkətə xəbərdarlıq edildi. Şirkət isə 1 ay müddətində öhdəlik götürdü ki, guya məni evlə təmin edəcəklər, amma həmin müddət də keçdi və "İnteks" MMC yenə də verdiyi vədi yerinə yetirmədi. Daha sonra icra şöbəsi yenidən həmin şirkətə 10 gün vaxt verdi ki, bu məsələni həll etsinlər. "İnteks" MMC-nin cavabdeh şəxsləri yenə də məsələni həll etmədilər və icraçıların çağırışına da gəlmədilər. Şirkətin sahibi Ruslan Məmmədov adlı şəxsdir. İcraçılar onun bu məsələni uzatmasına və icra şöbəsinə gəlməməsinə göz yumurlar".

***Murad İbrahimli***

# "AST Telman"a növbəti şok

## Qalmaqallı oliqarxın başı üstünü yenidən "qara buludlar" alıb - Həbs qaçılmazdır?

***Bu günlərdə Rusiyadakı məşhur "Çerkizovski" bazarının sabiq sahibi, azərbaycanlı iş adamı, "AST Telman" ləqəbli Telman İsmayılovun cinayət işində yeni detallar məlum oldu. Belə ki, Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) və Daxili İşlər Nazirliyinin məlumatına görə, beynəlxalq axtarışa verilən biznesmen bazara nəzarəti ələ keçirmək, onun genişləndirilməsi və mənfəətin yenidən bölüşdürülməsi məqsədi ilə törədilmiş bir sıra qətllərdə iştirak edib (modern.az).***

Telman Ismayılovun iddia edilən qurbanları arasında 1996-cı ildə pulemyotla güllələnən nüfuzlu dağ yəhudiləri Tair və Telman Qurşumov qardaşları da var. Qardaşlardan biri aldığı yaralardan dünyasını dəyişib.

Məlumata görə, Telman İsmayılovun cinayət işində yeni epizodların yaranması Basmannı rayon məhkəməsinin Çeçenistandan olan keçmiş ÇSKA güləşçisi Tarxan Eldukayevin həbs müddətinin üç ay uzadılması barədə qərarı zamanı ortaya çıxıb. Eldukayev Telman İsmayılovun ən yaxın adamlarından biri hesab edilir.

Qəzetin yazdığına görə, Telman İsmayılov 1996-cı ildə Tair Qurşumovla "pərakəndə satış sahəsinə sahiblik hüququ uğrunda rəqabətlə bağlı" münaqişəyə düşüb. Qeyd edək ki, ötən əsrin 90-cı illərində Qurşumov Rusiyada nüfuzlu şəxslərdən biri olub. Azərbaycanda yerləşən Qırmızı Qəsəbədən olan Tair Qurşumov 1970-ci illərdə Moskvaya köçüb və SSRİ Dövlət Plan Komitəsində işləyib. 1990-cı illərin əvvəllərində o, Moskvanın Şərq rayonunda ticarət yarmarkası təşkil edərək kiçik bazarı böyük topdan və pərakəndə ticarət mərkəzinə çevirib. Bundan əlavə, o, Moskvanın dağ yəhudiləri icmasının yaradıcılarından biri olub.Rusiya FTX-nin məlumatına görə, 1996-cı ilin payızında Telman İsmayılov və Tair Qurşumov arasında münaqişə kəskinləşib. 1996-cı il dekabrın 23-də Tair Qurşumovun və onun kiçik qardaşı Telman Qurşumov Moskvanın Şerbakovskaya küçəsində atəşə tutulub. Tair Qurşumov bir neçə gün sonra dünyasını dəyişsə də, qardaşı sağ qalıb.

İstintaqı rayon prokurorluğu aparsa da, sonradan iş dayandırılıb. "Kommersant"ın mənbələrinə görə, Telman İsmayılov Çerkizovski bazarı və bir sıra qətllərdə iştirakı ilə bağlı da araşdırma aparılır.

Xatırladaq ki, bundan əvvəl tanınmış müğənnilərdən birinə hücum, habelə 2016-cı ildə Novorijskoye şossesində sahibkarlar Vladimir Savkin və Yuri Brılevin sifarişlə qətlə yetirilməsi ilə bağlı iş çərçivəsində qiyabi ittiham irəli sürülən Telman İsmayılov beynəlxalq axtarışa verilib. O, Monteneqroda Rusiyanın tələbi ilə həbs edilib, lakin onu ekstradisiya etməkdən imtina edib.



Qəzet yazır ki, cinayət işi ilə bağlı yeni epizodlar qalmaqallı iş adamının ekstradisiyası üçün ikinci sorğu göndərməyə imkan verəcək. Qəribə burasındadır ki, qalmaqallı oliqarxın vəkili Marina Rusakova "Kommersant"a bildirib ki, Telman İsmayılova qarşı yeni şübhələr barədə ilk dəfədir eşidir.

Lakin Rusiyanın aparıcı mediasının yazdıqlarına görə "AST Telman"ın başı üzərində "qara buludların" yenidən sıxlaşdığını və onun əvvəlaxır həbs olunacağını düşünənlər kifayət qədərdir.

Onu da deyək ki, T.İsmayılov hazırda Monteneqroda yaşayır. Hətta iş adamına sığınacaq verdiyinə görə Monteneqronun Daxili İşlər Nazirliyinin dövlət katibi Zoran Milyaniçin Rusiyaya girişinə 2022-ci ildə qadağa da qoyulmuşdu. Həmin il fevralın 2-də Rusiya Xarici İşlər Nazirliyinin Zoran Milyaniçin ölkəyə girişinin qadağan edilməsi ilə bağlı notası Monteneqronun Rusiyadakı səfirliyinə göndərilmişdi.

Qeyd olunmuşdu ki, bu tədbir Monteneqro hakimiyyətinin 2021-ci ilin oktyabrında atdığı qeyri-dost addıma - Rusiya vətəndaşı olan Telman İsmayılova siyasi sığınacaq verməsinə Xarici İşlər Nazirliyinin cavabıdır.

Daha bir maraqlı detal: "AST Telman" 2021-ci il oktyabrın 1-də Monteneqroda saxlanılmışdı. O, yuxarıda adlarını çəkdiyimiz iki sahibkarın - Vladimir Savkinlə Yuri Brılevin qətlini sifariş verməkdə ittiham olunurdu. Lakin T.İsmayılov oktyabrın 22-də müvəqqəti saxlanma təcridxanasından azad edildi, ardınca isə Monteneqrodan siyasi sığınacaq aldı.

Bütün bunlar fonunda Rusiya hüquq-mühafizə orqanlarının iş adamını həbs edə bilməsi hazırda mümkünsüz qiymətləndirilir. Lakin onunla bağlı cinayət işinin gedişatından asılı olaraq iki ölkə arasında bununla bağlı hüquqi anlaşmanın əldə ediləbiləcəyinə inananlar da var.

***Sənan Mirzə***

15_27 IYUl-QARA.qxd 5/16/2024 11:05 PM Page 10



# Ətin ucuzlaşmamasında məmur izləri...

## Hər il yazda müşahidə olunan qiymət enməsi bu il niyə müşahidə olunmur? - İlginc təfərrüatlar

***Hər il yaz mövsumündə ucuzlaşan ətin bu dəfə qiyməti enmir. Hazırda bazarlarda quzu əti 18-19 manata, dana əti isə 14-15 manata təklif olunur.***

Satıcılar deyirlər ki, ətin qiyməti qalxmaqda davam edəcək, çünki yem bahadır, mövsümü ucuzlaşma isə gözlənilmir.

Onların sözlərinə görə, bahalığın səbəblərindən biri də bazar alverçilərinin fəallaşmasıdır. Bu gün fərdi təsərrüfatlarda yetişdirilən heyvanları birbaşa satmaq, demək olar ki, mümkün deyil. Çünki alverçilər buna imkan vermirlər. Onlar da aldıqları heyvana əlavə qiymət qoyurlar.




İqtisadçı Elman Sadıqov deyib ki, Azərbaycanın idxaldan asılılığı artır. Elə buna görə də ətin qiymətinin mövsümü ucuzlaşması real görünmür.

Ekspertlər hesab edirlər ki, Azərbaycan ətə olan tələbatının 80-90 faizini yerli istehsal hesabına ödəyə bilər. Bu zaman qiymətlərdə ucuzlaşma daha çox müşahidə edilə bilər (Xəzərxəbər).

Yerli KİV bir müddətdir yazır ki, Azərbaycan əhalisinin ətdən istifadə göstəriciləri hər il müəyyən qədər azalır. Ölkə insanı üçün ət getdikcə əlçatmaz qida predmetinə çevrilir. Quzu ətinin bir kilosunun artıq 20 manata yaxınlaşdığını nəzərə alsaq bir acı həqiqət bütün çılpaqlığı ilə aydın görünür: minimum əməkhaqqının 345 manat olduğu ölkədə əminliklə qiymətin çox yüksək olduğunu demək mümkündür.

Yaranmış vəziyyətin mühüm səbəblərindən biri örüş yerlərinin xeyli azalmasıdır. Məmur-oliqarxların kənd təsərrüfatı sektorunda söz sahibinə çevrilmə cəhdləri ciddi fəsadlar doğurmaqdadır. Fərdi təsərrüfatla məşğul olanların əl-qolu faktiki bağlanıb - bölgələrdə iri torpaq sahələri müxtəlif vəzifəli şəxslərin, onlara yaxın iş adamlarının nəzarətinə keçib. Əkinçiliklə məşğul olanların suya əlçatanlığı şübhə altında olduğu kimi, heyvandarlıqla məşğul olanlar, yaxud olmaq istəyənlər də örüş tapmaqda çətinlik çəkirlər.

Bir müddət öncə "Unikal"a açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, deputat Tahir Rzayev də bu mövzuya toxunmuşdu. O bildirmişdi ki, bəzi məsələlər araşdırılmalıdır: "Nə üçün bu qədər kənd təsərrüfatına yararlı torpaqlar son illərdə icra orqanları və bələdiyyələrin səhlənkarlığı nəticəsində tikintiyə verilib? 10 min hektarlarla kənd təsərrüfatına yararlı torpaq tikintiyə verilib və müəyyən adamlardadır. Həmin torpaqlardan istifadə olunmursa, mal-qara saxlamaq mümkün deyil. Belə olan halda ətin qiyməti artacaq".

T.Rzayevin sözlərinə görə, müəyyən adamlar var ki, öhdələrində 100 hektarlarla torpaq sahəsi var və neçə illərdir ondan istifadə etmir: "Bununla bağlı tədbirlər görülməlidir. Əgər əkilməyən torpaqlar varsa, onlar müəyyənləşdirilməlidir. Tədbirlər görülməsinə baxmayaraq, yenə də belə hallar var. Bunun nəticəsidir ki, ildən-ilə kənd təsərrüfatı məhsullarının qiyməti artır".

Yeri gəlmişkən, Azərbaycanda iribuynuzlu və xırdabuynuzlu heyvanların sayındakı kəskin azalma da məhz yuxarıda sadalananların məntiqi sonluğu kimi görünür. Belə ki, 2023-cü il oktyabr ayının 1-nə iribuynuzlu heyvanların sayı iki milyon 533.1 min baş, xırdabuynuzlu heyvanların sayı isə yeddi milyon 223.2 min baş təşkil edib. Dövlət Statistika Komitəsinin apardığı hesablamalara görə, 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu heyvanların sayı 4.3 faiz və ya 113.4 min baş, xırdabuynuzlu heyvanların sayı isə 8.9 faiz və ya 705.1 min baş azalıb. Cari ildə iribuynuzlu və xırdabuynuzlu heyvanların sayı azalaraq son 10 ilin ən aşağı həddinə düşüb. Azalma fonunda ətin qiyməti isə təbii ki, bahalaşmalıdır.

Milli Məclisin Aqrar siyasət komitəsinin üzvü, deputat Azər Badamov bir neçə ay öncə bu barədə "Kaspi"yə açıqlamasında demişdi ki, kəndlinin otlaq sahəsi olmadığı üçün bu proses baş verir: "Otlaq sahələrinin azalması kəndliyə mal-qaranı saxlamağı çətinləşdirir və sayını azaldır. Bu da ümumi bazara çıxarılan ətlik mal və heyvanların sayına təsir göstərir. Örüş və otlaq sahələrin azalması isə əkin sahələrinin genişlənməsi ilə bağlıdır. Son illər təyinatından asılı olmayaraq əkin aparmağa uyğun bütün sahələr əkinçiliyə və bağçılığa cəlb olunur. Bu da heyvanların yem bazasının azalmasına və bahalaşmaya səbəb olur".

Deputatın fikrincə, tədbirlər görülməsə, yaxın gələcəkdə ətin qiymətində daha çox bahalaşma olacaq: "Qısamüddətli tədbirlər üçün isə ətin idxal prosesi sadələşməlidir. Belə ki, ətin idxal olunması üçün müəyyən müddətə gömrük rüsumları azaldılmalı, ya da ümumiyyətlə ləğv olunmalıdır. Bazara xaricdən ucuz qiymətə ət idxal olarsa, qiymətlər özü-özünə tənzimlənər".

Beləliklə, ortada fərqli obyektiv və subyektiv səbəblər olsa da, Azərbaycanda heyvandarlığın yetərincə inkişaf etməməsində və ətin qiyməti ilə vətəndaşın cibi arasındakı uçurumun dərinləşməsində məmur səhlənkarlığı ön sıralarda dayanır. Onların kənd təsərrüfatına öz maraq prizmalarından yanaşması, örüş sahələrini özününküləşdirməsi, ya da kimə gəldi, necə gəldi satması xoşagəlməz mənzərə yaradıb. Bu mənzərəni aradan qaldırmaq üçün hökumətin təsirli addımlar atmasının zamanı isə çoxdan çatıb...

***Toğrul Əliyev***



# Azərbaycanda vəzifəli şəxsə cinayət işi açıldı

***Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbiri nəticəsində Bakı Şəhəri Qaradağ Rayon İcra Hakimiyyəti Başçısının Lökbatan ərazi dairəsi üzrə nümayəndəliyinin əməkdaşı Həsənov Bəxtiyar Rafiq oğlu vətəndaşdan rüşvət alarkən cinayət başında yaxalanıb və fakta görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluğun Mətbuat xidməti məlumat yayıb. İbtidai istintaqla Bəxtiyar Həsənovun Lökbatan qəsəbəsində yerləşən torpaq sahələrində fərdi yaşayış evinin tikilməsinə icazə verilməsinə köməklik göstərilməsi üçün ayrı-ayrı vətəndaşlardan müxtəlif məbləğlərdə pul vəsaitini rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edilib.

B.Həsənovun xidməti otağında aparılmış axtarışla iş üçün əhəmiyyət kəsb edən sübutlar aşkar edilərək götürülüb.

Toplanmış sübutlarla Bəxtiyar Həsənova Cinayət Məcəlləsinin 311.3.2-ci (təkrar rüşvət alma) maddəsi ilə ittiham elan edilməklə barəsində istintaq orqanının vəsatəti, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə ev dustaqlığı qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə digər təqsirli şəxslərin dəqiq dairəsinin müəyyən olunması istiqamətində istintaq davam etdirilir.

# Bu tarixdə II və III qruplar üzrə qəbul imtahanları keçiriləcək



***Məlum olduğu kimi, Dövlət İmtahan Mərkəzi tərəfindən mayın 26-da II və III ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanları keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə DİM-dən məlumat verilib. İmtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Ağstafa, Qazax, Sumqayıt, Abşeron, Şamaxı, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Cəlilabad, Masallı, Quba və Xaçmazda təşkil olunacaq. Abituriyentlər "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilərlər.

"İmtahana buraxılış vərəqəsi"ndə imtahanın keçiriləcəyi tarix, şəhər (rayon), bina, zal, başlanma vaxtı və abituriyentin imtahan binasına gəlmə vaxtı və s. məlumatlar qeyd olunub.

Abituriyentlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:
- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

Qeyd edək ki, imtahanlar saat 10:00-da başlanır. 09:45-dən sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

15_27 IYUl-QARA.qxd 5/16/2024 11:05 PM Page 11



# Gürcüstandan Azərbaycana qanunsuz keçmək istəyən 10 nəfər saxlanıldı



***"Qazax" əlahiddə sərhəd diviziyasının xidməti ərazisində Gürcüstandan Azərbaycana qanunsuz keçmək istəyən 10 nəfər saxlanılıb. Bu barədə "Unikal"a Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat xidmətindən məlumat verilib.***

Bildirilib ki, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının xidməti ərazisində 10 nəfər (6-sı azyaşlı olmaqla) Azərbaycan Respublikası vətəndaşı sərhəd naryadının sayıqlığı nəticəsində Gürcüstandan Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərərkən saxlanılıb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Azərbaycanda dollara tələbat 2 dəfədən çox azalıb



***Azərbaycan Mərkəzi Bankında (AMB) keçirilən növbəti valyuta hərracında 44,9 milyon ABŞ dolları satılıb.***

Bu barədə "Unikal"a AMB-dən məlumat verilib. Bildirilib ki, bu gün Mərkəzi Bankda növbəti valyuta hərracı keçirilib: "Hərracda tələb 44,9 milyon ABŞ dolları təşkil edib və tam təmin olunub".

Bu, daha öncə mayın 14-də keçirilən hərracda olan tələbatla müqayisədə 62,2 milyon ABŞ dollar və ya 2,4 dəfə azdır. Hərracın ortaçəkili məzənnəsi 1,7000 manat təşkil edib.

Xatırladaq ki, mayın 14-də Mərkəzi Bankda keçirilən valyuta hərracında tələb 107,1 milyon ABŞ dolları təşkil edib və tam təmin olunub. Tələbin nisbətən yüksək olması ötən həftənin cümə axşamının, mayın 9-unun qeyri-iş gününə təsadüf etməsi ilə bağlı olaraq hərracın qrafik üzrə keçirilməməsi səbəbindən yığılan tələblə əlaqədardır.

Qeyd edək ki, AMB-nin valyuta hərracı hər həftənin çərşənbə axşamı və cümə axşamları Azərbaycan Dövlət Neft Fondunun iştirakı ilə baş tutur.

# 2024-cü ilin ilk 3 ayında Yevlaxda "Ümumi məhsul və əhalinin gəlirləri" belə olub




***2024-cü ilin yanvar-mart aylarında şəhər iqtisadiyyatının əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilin eyni dövrünə nisbətən 3,7 faiz və ya faktiki qiymətlərlə 3087,8 min manat artaraq 86279,3 min manat olub.***

2023-cü ilin müvafiq dövründə bu göstərici 83191,5 min manat təşkil etmişdir. ÜMB-ın 44,6 faizi və ya 38495,5 min manatı istehsal, 55,4 faizi və ya 47783,8 min manatı isə xidmət sahələrində yaranmışdır.

Keçən ilin müvafiq dövründə istehsal 36175,8 min manat, xidmət isə 47015,7 min manat təşkil etmişdir.

Mal və xidmətlərin faktiki qiymətlərlə buraxılışı sənaye sahəsində 8412,5 min manat və ya ümumi məhsul buraxılışının həcmində xüsusi çəkisi 9,8 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq 24470,0 min manat və ya 28,4 faiz, tikintidə 5613,0 min manat və ya 6,5 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri 45054,6 min manat və ya 52,2 faiz, nəqliyyat və anbar təsərrüfatında 1920,1 min manat və ya 2,2 faiz, informasiya və rabitədə 809,1 min manat və ya 0,9 faiz olmuşdur.

***Yevlax Şəhər Statistika İdarəsinin rəisi***
***Saleh Cəfərov***

# Keçmiş oliqarxın davalı mülkləri

## Sabiqlərin izi ilə: Məhəmməd Məmmədovun topdağıtmaz sərvətindən geriyə nə qalıb?

***"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz "Aztelekom" İstehsalat Birliyinin həbsdə olan sabiq baş direktoru Məhəmməd Məmmədov haqqındadır.***

Bir zamanlar onun adı ölkənin ən varlı məmurları sırasında çəkilirdi, sərvətinin hədd-hüdud tanımadığı bildirilirdi. Çox keçməyəcək və bu deyilənlərin əsassız olmadığı gün işığına çıxacaqdı.

Hələliksə öncə onu deyək ki, "Aztelekom"un sabiq baş direktoru vəzifə səlahiyyətlərindən sui-istifadə və vəzifə saxtakarlığı maddələri ilə 2015-ci ilin noyabr ayında, məşhur "Rabitə işi" zamanı həbs edilmişdi. 2018-ci ildə şərti cəza ilə həbsdən azad olunan Məmmədov bir qədər sonra bu cəzanın götürülməsi üçün məhkəməyə üz tutmuşdu Nəticədə Xətai Rayon Məhkəməsi onun müraciətini təmin elədi - sabiq baş direktorun şərti məhkumluğu da ləğv olundu. Lakin qərardan narazı qalan dövlət ittihamçısı apellyasiya protesti verdi. Bakı Apellyasiya Məhkəməsi prokurorluğun protestini təmin etmədi, birinci instansiya məhkəməsinin çıxardığı qərarı dəyişdirmədən saxladı.

Beləcə, M.Məmmədovun üzərindən məhkumluğu götürüldü. Həmin vaxt yayılan bəzi iddialara görə bütün bunlar sabiq baş direktora kifayət qədər baha başa gəlib. Daha da dəqiqləşdirsək, bir çox qaynaqlar bildirir ki, hazırda o özünün sahibi olduğu sərvətin böyük bir hissəsindən məhrumdur.

Məsələ burasındadır ki, "Rabitə işi" ilə bağlı ittiham aktında sabiq baş direktorun sahib olduğu varidatın kifayət qədər uzun siyahısı vardı. Məsələn, onun və ailə üzvlərinin adına əmlakların bir hissəsi belə sıralanırdı: Bakı şəhəri, Xəzər rayonu, Dübəndi bağ sahəsində 2 bağ evi, Bakı şəhəri, Xətai rayonu, Nəsrəddin Tusi küçəsində yerləşən 19 saylı yeni tikilidə 14 saylı mənzil, Abşeron rayonu, Fatmayi kəndində 145 və 145a saylı bağ evləri, Nəsimi rayonu Mərdanov Qardaşları küçəsində yerləşən "Yurd" MTK-da 34 saylı mənzil, Binəqədi rayonu, Rəsulzadə qəsəbəsində yerləşən ticarət obyektləri;

Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən istintaqa daxil olmuş 06.11.2015-ci il tarixli 150220205080 №-li məktuba əsasən isə: "BTRİB" b/y-nin 5-6-cı Şimal küçəsində bağ evi, Bakı şəhəri, Binəqədi rayonu, Goradil kəndi, 226 saylı bağ sahəsi...

Bununla yanaşı, M.Məmmədovun oğlu Məmmədzadə Araz Məhəmməd oğlunun adına Bakı şəhəri, Binəqədi rayonu, Rəsulzadə qəsəbəsi, Zahid Qəmbərov küçəsi, ev 22/24-də yerləşən qeyri-yaşayış sahəsi, qızı Məmmədova Şükufə Məmməd qızının adına isə Bakı şəhəri, Binəqədi rayonu, Şövkət Məmmədova küçəsi, 15 saylı evin 51 saylı mənzilin olduğu da ortaya çıxmışdı.

M.Məmmədovun digər qızı Məmmədova Şeyda Məhəmməd qızının adına Bakı şəhəri, Nəsimi rayonu, Vladislav Plotnikov küçəsi, 21 a saylı evin 31 saylı mənzili, Bakı şəhəri, Səbail rayonu, F.Əmirov küçəsi, 2 saylı qeyri-yaşayış sahəsi aşkarlanmışdı.

Sabiq baş direktorun digər oğlu Məmmədzadə Babək Məhəmməd oğlunun adına isə Abşeron rayonu, Fatmayı kəndi, Qara Qarayev küçəsi, 145, 145a saylı fərdi yaşayış evi, Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov Qardaşları küçəsi, 117b saylı evin 34 saylı mənzili, Bakı şəhəri, Səbail rayonu, Nizami küçəsi, 91 saylı evin 23 saylı mənzili, Xaçmaz rayonu, Aşağıoba kəndində torpaq sahəsi olması müəyyənləşdirilmişdi.

Lakin bütün bunlar da M.Məmmədovun nəhəng sərvətinin heç də hamısı sayıla bilməz. Belə ki, onun ölkə kənarında (Rusiya, Türkiyə və s. ölkələrdə) daşınan və daşınmaz əmlaklarının olduğuna dair vaxtilə media çox yazmışdı. Həmçinin Azərbaycanın özündə onun müxtəlif iş adamları ilə şərikli biznesinin mövcudluğu barədə bir zamanlar ardı-arası kəsilmədən iddialar səsləndirilirdi.



İstənilən halda cəmi 9 il öncəyədək sabiq baş direktor ölkənin ən varlı oliqarx-məmurlarından idi, hərçənd Məmmədovun adı digərləri ilə müqayisədə mətbuat səhifələrini çox bəzəməzdi. Ta ki, 2015-ci ildə o, "Rabitə işi" çərçivəsində həbs edilənədək!

Bu həbsdən qurtulmaq isə ona şübhəsiz ki, vəzifədə olarkən rüşvət və korrupsiya pulları hesabına əldə etdiyi topdağıtmaz sərvətinin böyük bir hissəsini itirmək, bir də 3 illik zindan həyatı yaşamaq hesabına başa gəlib...

Onu da deyək ki, sabiq baş direktorun adı sonuncu dəfə qalmaqallı şəkildə 6 il öncə mətbuatın gündəminə düşmüşdü. Söhbət onun mülk davasından gedirdi. Həmin vaxt xəbər yayılmışdı ki, Məhəmməd Məmmədovun şikayəti əsasında onun bacısı oğlu həbs olunub. Unikal.org-a daxil olan məlumatda bildirilirdi ki, Məmmədovun bacısı oğlu, eyni zamanda "Aztelekom"da köməkçisi işləmiş Qulunu həbs etdirməsinə səbəb Mingəçevir və Bakıda yerləşən mülklərini ona qaytarmaq istəməməsi olub. Belə ki, Məhəmməd Məmmədov həbsdən azad olunduqdan sonra Quludan vaxtilə onun adına rəsmiləşdirdiyi mülklərini - Mingəçevirdəki şadlıq sarayını və Bakıda hündürmərtəbəli binada yerləşən iki mənzilini geri qaytarmağı tələb edib. Bacısı oğlu bu tələbə məhəl qoymadığından M.Məmmədov hüquq-mühafizə orqanlarına şikayət ünvanlayıb. Onun şikayəti əsasında Qulu saxlanılıb. O, 3 gün həbsdə qaldıqdan sonra dayısının mülklərini geri qaytarıb.

Hazırda sabiq baş direktorun harada yaşadığı və nə işlə məşğul olduğu bəlli deyil.

***Sənan Mirzə***

## 5.3.19. uşaq və gənclərin fiziki və mənəvi inkişafı

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Uşaq evlərindən isti ocaqlara...



***Himayədar ailə institutunun tətbiqi valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş, valideynləri tərəfindən müəssisəyə qoyulmuş uşaqların dövlət nəzarəti altında ailə mühitində böyüməsini təmin edir.***

Uşaq və gənclərin fiziki və mənəvi inkişafı dövlət siyasətində prioritet istiqamətlərdəndir. Dövlət başçısı İlham Əliyevin təsdiqlədiyi “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı” uşaqları müdafiə sistemini gücləndiməklə, ölkə üzrə uşaqları müdafiə mexanizminin təkmilləşdirilməsi və genişləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi üçün mühüm sənəddir. Bu sənəddə çətin həyat şəraitində, baxımsız və sosial təhlükəli vəziyyətdə olan uşaqların aşkarlanması və onların sosial müdafiəsi, reabilitasiyası, cəmiyyətə inteqrasiyası sahəsində tədbirlərin həyata keçirilməsi xüsusi istiqamət kimi nəzərdə tutulur. Sənəddə yer alan məqamlardan biri də, ölkəmizdə alternativ qayğı xidmətlərinin inkişafı, həyatın bütün sahələrində uşaqlara qarşı zorakılığın qadağan olunması ilə bağlı qanunvericilik təkliflərinin işlənilməsidir. Tədbirlər Planında da qeyd edilir ki, alternativ qayğı xidməti kimi, “himayədar ailə” institutunun tətbiqi və inkişaf etdirilməsinə dair mexanizmlərin müəyyən olunması üçün normativ hüquqi bazanın yaradılması vacibdir. Bəs görəsən , “himayədar ailə” institutu ilə bağlı vəziyyət hazırda nə yerdədir?

Sosial Xidmətlər Agentliyindən sorğumuza verilmiş cavabda bildirilib ki, Azərbaycanda “himayədar ailə” institutu tətbiq edilir. Qurumun məlumatına görə, “Himayədar ailə” qayğı modeli valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş, valideynləri tərəfindən müəssisəyə qoyulmuş uşaqların dövlət nəzarəti altında ailə mühitində böyüməsi və inkişafını nəzərdə tutur.

“Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən himayədar ailələrə verilən uşaqların sayı 12-yə çatıb. Qanunvericiliyə uyğun olaraq Nazirliklə həmin uşaqları himayəyə götürən şəxslər arasında uşağın himayədar ailəyə verilməsinə dair müqavilələr imzalanıb. Himayədar ailələrə verilən uşaqlardan 3-ü oğlan, 9-u qızdır. Həmçinin 7-si 6 yaşadək olan, 4-ü 7-13 yaş arası, 1-i 14-18 yaş arası uşaqlardır.Hazırda həmin uşaqların 3-ü Bakı şəhərindəki, 9-u rayonlardakı (Lənkəran-2, Cəlilabad-1, Ağcabədi-1 , Biləsuvar-1, Zaqatala-1, Gəncə-1, Göyçay-1, Şamaxı - 1) ailələrdə yaşayırlar”, deyə qurumdan bildirilib.

Azərbaycanda himayədar ailələrlə bağlı sosial dəstək mexanizmi də var. Agentliyin məlumatına görə, himayədar ailələrlə bağlı sosial dəstək mexanizmi çərçivəsində həmin ailələrə himayəyə götürdükləri:

- 0-6 yaş arası uşağa görə 355 manat (əlilliyi müəyyən edilmiş uşaq olduqda 395 manat);
- 7-13 yaş arası uşağa görə 375 manat (əlilliyi müəyyən edilmiş uşaq olduqda 415 manat);
- 14-18 yaş arası uşağa görə 395 manat (əlilliyi müəyyən edilmiş uşaq olduqda 435 manat) aylıq müavinət verilməsi nəzərdə tutulub.

Himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün ailələr hər rübdə bir dəfə 200 manat məbləğində birdəfəlik müavinətlə də təmin edilirlər.

Qeyd edək ki, dünyada geniş yayılmış təcrübələrdən biri olan ”Himayədar ailə” qayğı modeli valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş, valideynləri tərəfindən müəssisəyə qoyulmuş uşaqların qısa və ya uzun müddət ərzində dövlət nəzarəti altında ödənişli əsaslarla ailə mühitində böyüməsini nəzərdə tutur. Məqsəd həmin uşaqların ailə mühitində yaşamaları və inkişafına şərait yaratmaqdır.

Dövlət başçısının 2022-ci il 15 fevral tarixli Fərmanına əsasən himayədar ailə sahəsində dövlət siyasəti, tənzimləmə və dövlət nəzarəti sahəsində səlahiyyətlər ötən ilin 1 noyabrından Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilib. Himayədar ailə modelinin ölkəmizdə tətbiqi ilə bağlı Nazirlik tərəfindən qabaqcıl dünya təcrübəsi, xüsusilə Türkiyə təcrübəsi öyrənilməklə müvafiq işlər aparılıb. Övladlığagötürmə sahəsində olduğu kimi, himayədar ailə qayğı modeli üzrə müraciətlərin qəbulu və xidmətlərin idarə edilməsi də Nazirliyin ”Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə” altsistemi üzərindən həyata keçiriləcək. Bununla bağlı altsistemdə müvafiq təkmilləşdirmə işləri yerinə yetirilib.

Prezident İlham Əliyev tərəfindən imzalanan yeni qanunvericilik aktları ilə eyni zamanda valideyn himayəsindən məhrum olmuş uşaqların valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə yerləşdirilməsi, habelə həmin müəssisələri tərk etməsi ilə bağlı mövcud olan mexanizm təkmilləşdirilib. Belə ki, yeni qanunvericilik aktlarında valideyn himayəsindən məhrum olmuş uşaq barədə məlumat alındıqda uşağın və onun ailəsinin həyat şəraitini, valideyn himayəsindən məhrum olma səbəblərini müəyyən etmək məqsədilə ilkin və əsaslı qiymətləndirilmənin aparılması, ailə inkişaf planlarının tərtib olunması, ailəyə yönəlik sosial dəstək tədbirlərinin göstərilməsi və s. məsələlər əksini tapıb. Azərbaycan Uşaqlar Birliyinin rəhbəri Kəmalə Ağazadə “Unikal”a deyib ki, uşaqların himayədar ailələrə verilməsi uşaq evlərində valideyn qayğısından kənar yaşayan uşaqların ailə mühitinə geri dönməsini təmin edəcək. Bu, uşaq evlərindəki valideyn himayəsindən kənar uşaqların sayını da azaldacaq. Birlik rəhbəri onu da qeyd edib ki, himayədar ailələrin olması sosial aspektdən çox vacibdir.

Qeyd edək ki, himayədar valideyn olmaq istəyən nikahda olan şəxslərdən biri - ər və ya arvad üçün aşağı yaş həddi 25, nikahda olmayanlar üçün 30 yaşı müəyyən olunub. Nikahda olmayan şəxslə ona himayəyə verilən uşağın yaş fərqi 18-dən az olmamalıdır. 7 yaşına çatmış uşaq himayədar ailəyə onun fikri nəzərə alınmaqla, 10 yaşı tamam olmuş uşaq isə yalnız öz razılığı alındıqdan sonra himayədar ailəyə verilir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




## Azərbaycan fudokançıları Avropa çempionatında iştirak edəcək

***Azərbaycan fudokançıları Sloveniyanın Podcetrtek şəhərində keçiriləcək Avropa çempionatında iştirak edəcək.***

”Unikal” Azərbaycan Karate Federasiyasının (AKF) mətbuat xidmətinə istinadən xəbər verir ki, 27-ci dəfə təşkil olunacaq yarışda AKF-nın ənənəvi karate üslubu fudokan üzrə komandasının heyətində uşaqlar arasında Yusif Mustafazadə, Mövlan Məmmədli , Mənsumə Məmmədli, yeniyetmələr arasında, Leyla Mahmudlu, Rəşidə Qafarlı, gənclər arasında, İsmayıl İbrahimli, Mehti Abdullayev, Şəhriyar Behbudzadə, Tahir Ələkbərov, böyüklər arasında Vahid Həsənov və Kamran Heydərzadə yer alacaq.

İdmançılarımız yarışa AKF prezidentinin köməkçisi, Dünya Fudokan Federasiyasının (ənənəvi karate üslubu) Azərbaycan üzrə rəsmi nümayəndəsi Vüsal Abdullazadə və nümayəndəliyin vitse-prezidenti Aqil Soltanovun rəhbərliyi altında yollanıblar.

## Goranboy rayonu üzrə istehlak bazarında qiymətlərin indeksi

Goranboy rayonu üzrə istehlak mallarının qiymətləri və xidmət tarifləri 2024-cü ilin yanvar-mart aylarının əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,7 faiz bahalaşmışdır.

**Cədvəl 1**

İstehlak qiymətlərinin məcmu və qruplar üzrə indekslərinin yekun göstəriciləri, faizlə

| Göstəricinin adı | 2024-cü ilin mart ayı 2024-cü ilin fevral ayına nisbətən | 2024-cü ilin yanvar-mart ayları 2023-cü ilin yanvar-mart aylarına nisbətən |
|---|---|---|
| Cəmi məhsullar və xidmətlər | 100,5 | 101,7 |
| Qida məhsulları, içkilər və tütün məmulatları | 101,4 | 102,1 |
| Qeyri-qida məhsulları | 99,3 | 101,7 |
| Ödənişli xidmətlər | 100,4 | 101,3 |

*Qrafik 1*

**İstehlak məhsulları və əhaliyə göstərilən ödənişli xidmətlərin qiymət indeksləri, faizlə**




İstehlak mallarının qiymətləri və xidmət tarifləri 2024-cü ilin yanvar-mart aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,7 faiz bahalaşmışdır.

2024-cü ilin yanvar-mart aylarında 2023-cü ilin yanvar-mart aylarına nisbətən “Qida məhsulları, içkilər və tütün məmulatları” qrupu məhsullarının qiymətləri əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,1 faiz bahalaşmışdır.

2024-cü ilin yanvar-mart aylarında 2023-cü ilin yanvar-mart aylarına nisbətən qeyri-qida məhsulları qiymətləri əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,7 faiz bahalaşmışdır.

2024-cü ilin yanvar-mart aylarında 2023-cü ilin yanvar-mart aylarına nisbətən əhaliyə göstərilmiş ödənişli xidmətlərin qiymətlərində də əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz bahalaşma müşahidə olunmuşdur.

# Siyəzən rayonunda pensiyaçıların sayı barədə statistika

***2024-cü ilin əvvəlinə Siyəzən rayonunda pensiyaçıların sayı 3666 nəfər olub.***

Pensiyaçıların 2056 nəfəri yaşa görə, 751 nəfəri əlilliyə görə, 859 nəfəri isə ailə başçısının itirilməsinə görə pensiya alan şəxslərdir. Təyin olunmuş aylıq pensiyaların orta məbləği 364,24 manat təşkil etmişdir.

2024-cü ilin əvvəlinə əhaliyə dövlət tərəfindən verilən sosial müavinət təyin olunmuş şəxslərin sayı 1743 nəfər olmuşdur. 1 nəfərə düşən sosial müavinətin orta aylıq məbləği 184,5 manat olmuşdur.

2024-cü il yanvar ayının 1-i vəziyyətinə rayonda aztəminatlı ailələrə verilən ünvanlı dövlət sosial yardımı alan ailələrin sayı 256 olmuşdur və 1 nəfərə düşən ünvanlı dövlət sosial yardımının orta aylıq məbləği 113,63 manat təşkil etmişdir.

*Kamil Xəlilov,*
*Siyəzən Rayon Statistika İdarəsini rəisi*

# Azərbaycanın su ehtiyatları 15 faizədək azalıb

***İqlim dəyişiklikləri dünya ictimaiyyətini ciddi narahat edir.***

"Unikal" xəbər verir ki, bu sözləri ADA Universitetində keçirilən İqlim-Su Zirvəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Əkbər Əsgərov deyib. O, iqlim dəyişmələrinin su ehtiyatlarına olduqca mənfi təsir etdiyinə diqqət çəkib: "Ölkədə su obyektləri üzərində müşahidələr aparılır. Biz qlobal istiləşmənin bu sahədə yaratdığı fəsadların şahidi oluruq. Məhz bu səbəbdən, Azərbaycanın su ehtiyatlarında 15 faizə qədər azalma var".

Ə.Əsgərov bu il COP29-un Azərbaycanda keçirilməsini mühim hadisə kimi dəyərləndirib: "COP29-da yaşıl planet və sağlam gələcək naminə üzləşə biləcəyimiz problemləri idarə etmək üçün geniş müzakirələr aparılacaq".

# "Yəqin ki, daha hərbi sistemdə olmayacağam" - Ramiz Tahirov

***Xəbər verdiyimiz kimi, müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov Prezidentin Sərəncamı ilə vəzifəsindən azad olunaraq ehtiyata buraxılıb.***

General Tahirov "Manset.az"a açıqlamasında Prezident İlham Əliyevə təşəkkür edib: "Mənim xidmətlərim yüksək qiymətləndirilib. Hazırda bir sıra təkliflər var, qərar verməmişəm. Yəqin ki, bundan sonra hərbi sistemdə olmayacağam. Başqa bir sahədən təklif var. Sahənin konkret hara olması ilə bağlı bir söz deməyəcəm. Öz yerimə kimin təyin olunacağı məsələsinə gəlincə, bu mənim səlahiyyətimdə deyil. Kifayət qədər potensiallı insanlar var. Kiminsə adını çəkən deyiləm". Vətən Müharibəsi Qəhrəmanı Namiq İslamzadə və Hərbi Hava Qüvvələrinin Hava Təlim komandiri general Namiq Bayramovun onun yerinə əsas namizəd olması ilə bağlı sualı isə R.Tahirov belə cavablandırıb: "Hər ikisini tanıyıram. Namiq Bayramovla Naxçıvanda bir yerdə çalışmışıq. Bilavasitə bu sahədə çox təcrübəli və biliklidir".

# Qusar rayonunda çalışan dövlət qulluqçuları haqqında rəqəmlər

***Qusar rayonunda dövlət qulluqçularının orta illik siyahı sayı 2024-cü ildə - 158 nəfər olmuşdur, onlardan 31 nəfəri qadındır.***

2024-cu ilin sonuna 158 nəfərdən -143 inzibati, 15 isə yardımçı vəzifələri tutmuşlar. 158 nəfər dövlət qulluqçusundan 72 nəfəri rəhbər işçilərdir ki, onlardan 5 nəfəri qadındır.

Dövlət qulluqçularının yaşa görə bölgüsünə nəzər saldıqda görərik ki, burda əksəriyyət orta nəslə aiddir. Belə ki 35-54 yaşda olan dövlət qulluqçularının sayı 74-dür (46,8%), 30 yaşa qədər - 15 nəfər(9,5%), 30-34 yaş arası-17 nəfər (10,8%) və 55 yaşdan yuxarı - 52 nəfərdir (32,9%).

Dövlət qulluqçularının orta aylıq nominal artaraq əməkhaqqı keçən illə müqayisədə 11,9 faiz artaraq 2024-cü ildə 1354,9 man təşkil edib.

## ELAN

Bakı şəhəri, Binəqədi rayonu ünvanında qeydiyatda olan Məmmədova Cəmilə Fikrət qızına məxsus olan Fövqəladə Hallar Nazirliyi tərəfindən verilmiş xidməti vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# Könül Ağayevanı öldürən də tələbə olub, bir evdə yaşayıblar - Təfərrüat

***Xəbər verdiyimiz kimi, 2 aydır itkin kimi axtarışda olan 2002-ci il təvəllüdlü Könül Ağayevanın qəsdən öldürülməsi müəyyən edilib.***



Onun cəsədi Lənkəran şəhərində evlərdən birinin zirzəmisindən tapılıb.

Həyata keçirilmiş çoxsaylı istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində 2003-cü il təvəllüdlü Lənkəran şəhər sakini Elvin İsmayılzadənin martın 1-də Lənkəran şəhəri ərazisində yerləşən evlərdən birində Könül Ağayevanı boğaraq qəsdən öldürməsi, növbəti gün cinayət hadisəsini gizlətmək üçün tanışı Xəyal Səmədovun köməkliyi ilə Könül Ağayevanın meyitini həmin fərdi yaşayış evinin birinci mərtəbəsində basdırmasına əsaslı şübhələr müəyyən edilib.

Trend-in əldə etdiyi məlumata görə, Könül Ağayevanın cəsədi tapılan ev iki nəfər tələbəyə kirayə verilib. Könül Ağayeva da həmin evdə onlarla bir yerdə yaşayıb. Könül Ağayevanı öldürməkdə şübhəli bilinən Elvin İsmayılzadə onu evdəki pilləkənin altında basdırıb.

Məlumata görə, həmin evdə daha əvvəl də baxış keçirilsə də, Könül Ağayevanın cəsədi tapılmayıb.

K.Ağayeva Azərbaycan Dövlət Pedoqoji Universitetinin Cəlilabad filialının Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasının 4-cü kurs tələbəsi olub. 22 yaşlı qızın işləmək məqsədilə Lənkərana gəlib, bu ilin martın 2-dən isə itkin düşüb.

Azərbaycan Dövlət Pedoqoji Universitetinin Cəlilabad filialından bildirilib ki, K.Ağayeva fevral ayından etibarən dərslərdə iştirak etməyib və bu barədə ailəsinə də məlumat verilib.

K.Ağayeva mayın 14-də doğulduğu Cəlilabad rayonu, Muğan qəsəbəsində dəfn olunub.

Faktla bağlı Lənkəran Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsilə cinayət işi başlanıb.

Elvin İsmayılzadə polis əməkdaşları tərəfindən saxlanılaraq istintaqa təhvil verilib və prokurorluq tərəfindən şübhəli şəxs qismində tutulub.

# İcra Hakimiyyətində kompüterlərin zərərvericilərə yoluxma halı aşkarlanıb

***Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kompüter İnsidentlərinə Qarşı Mübarizə Mərkəzinin Təhlükəsizlik Əməliyyatları Mərkəzi tərəfindən dövlət qurumlarının informasiya təhlükəsizliyini təmin etmək məqsədilə aparılan monitorinq nəticəsində Qazax Rayon İcra Hakimiyyətində istifadə olunan bir neçə kompüterin zərərvericilərə yoluxma halı aşkar edilib.***

"Unikal" xəbər verir ki, insidentin yerində araşdırılması zamanı Zərərvericilərin Tədqiqi Laboratoriyası tərəfindən işçi kompüterlərə baxış keçirilmiş, yoluxmanın yayılma üsulu müəyyən edilmiş və zərərverici nümunələr götürülüb. İnformasiya sistemində təhlükəsizlik boşluqları və nöqsanları aşkar edilmiş, audit hesabatı hazırlanmış, tövsiyyələrlə bərabər aradan qaldırılması üçün İcra Hakimiyyətinə təqdim edilmişdir.



Sonda İcra Hakimiyyətinin nümayəndələri üçün Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin əməkdaşları tərəfindən "Kibergigiyena üzrə ən qabaqcıl təcrübələr" mövzusunda təlim keçirilmişdir. Təlimdə internetdən təhlükəsiz istifadə, şifrə siyasəti, fişing hücumları, son zamanlar yayılmış kiberhücum metod və vektorları kimi aktual mövzulara toxunulmuşdur. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən dövlət qurumlarında informasiya təhlükəsizliyi səviyyəsinin artırılması sahəsində görülən işlərlə bağlı ətraflı məlumat verilmişdir. Sonda mövzu ilə bağlı iştirakçıların sualları cavablandırılmışdır.

# Şahdağ Milli Parkına reintroduksiya edilmiş nəcib maralların sayında artım olub

***IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən nadir və nəsli kəsilmək təhlükəsində olan bioloji növlərin artırılması, tarixən məskunlaşdıqları ərazilərə reintroduksiya olunması layihəsi çərçivəsində Şahdağ Milli Parkına buraxılan nəcib marallardan birinin balası dünyaya gəlib. Beləliklə, reintroduksiya edilmiş nəcib maralların sayı təbii artımla birlikdə 8 başa çatıb.***



ETSN-dən "Unikal"a bildirilib ki, hazırda bala və ananın vəziyyəti yaxşıdır, onlar yırtıcılardan mühafizə məqsədilə Şahdağ Milli Parkının İsmayıllı bölməsində qapalı volyer şəraitində saxlanılır.

Qeyd edək ki, Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilmiş nəcib maral keçmiş dövrlərdə Böyük və Kiçik Qafqazın, Talış dağlarının meşələrində, həmçinin Kür və Araz çaylarının Tuqay meşələrində yaşayıb. Hazırda nəcib maral populyasiyalarına yalnız Böyük Qafqazda rast gəlinir. Bu növün meşə ekosistemlərinin inkişafında potensial rolunu nəzərə alaraq, onun populyasiyasının bərpa edilməsi təbiətimiz üçün olduqca mühüm əhəmiyyətə malikdir.

# 2024-cü ilin yanvar-mart aylarında Ağdaş rayonunun makroiqtisadi göstəriciləri...




***2024-cü ilin yanvar-mart aylarında rayonda iqtisadiyyatın əsas sahələri üzrə 86 milyon 249,9 min manatlıq məhsul və xidmətlər istehsal olunmuşdur. Bu göstərici əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 6,8 faiz və ya 5 milyon 516,7 min manat çox, qiymət indeksi nəzərə alınmaqla isə 7,3 faiz və ya 5 milyon 884,1 min manat çoxdur.***

Müqayisə olunan dövrə nisbətən ümumi məhsul buraxılışı qiymət indeksi nəzərə alınmaqla tikinti-quraşdırma işləri sahəsində 3,1 dəfə və ya 8 milyon 329,6 min manat, nəqliyyat və anbar təsərrüfatı sahəsində 15,3 faiz və ya 214,0 min manat, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində isə 0,5 faiz və ya 115,1 min manat artmış, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 2,7 faiz və ya 675,7 min manat, sənaye məhsulu istehsalı sahəsində 7,6 faiz və ya 2 milyon 72,3 min manat, informasiya və rabitə sahəsində isə 14,8 faiz və ya 26,6 min manat azalmışdır.

Ümumi məhsul buraxılışının 30,0 faizi kənd təsərrüfatı, 27,0 faizi ticarət xidməti və nəqliyyat vasitələrinin təmiri, 26,7 faizi sənaye, 14,3 faizi tikinti, 1,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,2 faizi isə informasiya və rabitə xidmətləri sahəsində yaranmışdır.

Məhsul və xidmətlərin 71,0 faizi istehsal sahələrinin, 29,0 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

Rayonun əsas istehsal sahəsi olan kənd təsərrüfatı müəssisələrində, fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarında 25 milyon 902,6 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da, 8,1 min manatı bitkiçiliyin, 25 milyon 894,5 min manatı isə heyvandarlığın payına düşmüşdür. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalı faktiki qiymətlərlə 4,3 faiz artmış, qiymət indeksi nəzərə alınmaqla isə 2,7 faiz azalmışdır.

Rayonun 14 sənaye müəssisəsi və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 23 milyon 18,1 min manatlıq və ya əvvəlki ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 15,6 faiz, qiymət indeksi nəzərə alınmaqla isə 7,6 faiz az sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Bu dövrdə sənaye məhsulunun 83,6 faizi emal, 14,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,5 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. İstehsal olunmuş sənaye məhsulunun 3 milyon 633,5 min manatı və ya 15,8 faizi dövlət, 19 milyon 384,6 min manatı və ya 84,2 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. İstehsal olunmuş sənaye məhsulunun 19 milyon 898,5 min manatı və ya 86,5 faizi hüquqi şəxslərin, 2 milyon 957,0 min manatı və ya 12,8 faizi ev təsərrüfatlarının, 162,6 min manatı və ya 0,7 faizi isə fərdi sahibkarların payına düşmüşdür.

2024-cü ilin yanvar-mart aylarında rayonda 12 milyon 347,6 min manatlıq tikinti-quraşdırma işləri yerinə yetirilmiş, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,1 dəfə çoxdur. Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiya hesabına görülmüş tikinti-quraşdırma işləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 59,9 dəfə artmış, yerli imkanlar hesabına görülmüş tikinti-quraşdırma işləri isə 63,7 faiz azalmışdır. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin 10 milyon 955,4 min manatı və ya 88,7 faizi dövlət, 1 milyon 392,2 min manatı və ya 11,3 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür.

Rayonda ticarət, nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı və informasiya və rabitə sahəsində 24 milyon 981,6 min manatlıq xidmətlər istehsal olunmuşdur. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 1,5 faiz və ya 375,3 min manat, qiymət indeksi nəzərə alınmaqla isə 1,2 faiz və ya 302,5 min manat çoxdur. İstehsal olunmuş xidmətlərin 23 milyon 246,7 min manatı və ya 93,1 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində, 1 milyon 581,2 min manatı və ya 6,3 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 153,7 min manatı və ya 0,6 faizi informasiya və rabitə sahəsində olmuşdur. Ticarət şəbəkələrində əhaliyə 72 milyon 646,0 min manatlıq istehlak malları satılmış və 2023-cü ilin eyni dövrü ilə müqayisədə rayonda 0,5 faiz və ya 373,2 min manat çox istehlak malları realizə olunmuşdur.

2024-cü ilin yanvar-mart aylarında bütün maliyyə mənbələrindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala 14 milyon 823,4 min manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,0 dəfə çox vəsait yönəldilmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 12 milyon 347,6 min manatı və ya 83,3 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə, 2 milyon 475,8 min manatı və ya 16,7 faizi isə maşın və avadanlıqların və digər əsas vəsaitlərin alınmasına sərf olunmuşdur.

***Arif Qurbanov***
***Ağdaş Rayon Statistika İdarəsinin rəisi***

# "Kənddən Şəhərə" həftəsonu yarmarkası təşkil ediləcək



***Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 18-19 may tarixlərində Bakıda "Kənddən Şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq.***

"Unikal" xəbər verir ki, yarmarkada 20-dək regiondan 40-a yaxın fermerin iştirakı gözlənilir. Fermerlər 100-ə yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər.

Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının çıxışı) ünvanında fəaliyyət göstərəcək yarmarkada məhsullar birbaşa fermerlər tərəfindən satışa çıxarılacaq. Məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Vətəndaşlar satışa çıxarılan istənilən məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün Səyyar Qida laboratoriyasının xidmətlərindən faydalana biləcəklər.

Yarmarkanın keçirilməsində əsas məqsəd təsərrüfat sahibləri üçün alternativ satış kanalı yaratmaq, həmçinin şəhər sakinlərini yerli və təbii kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

Qeyd edək ki, yarmarkada iştirak edəcək fermerlər ödənişsiz şəkildə piştaxta, tərəzi və digər avadanlıqlarla təmin olunacaqlar. "Kənddən Şəhərə" yarmarkalarında iştirak etmək istəyən fermerlər +994 50 400 88 99 çağrı mərkəzi ilə əlaqə saxlaya və ya yarmarkanın sosial şəbəkə hesabları üzərindən müraciət edə bilərlər.

# Cinayətdə şübhəli bilinən 69 nəfər saxlanıldı



***Mayın 15-də ölkə ərazisində qeydə alınan 61, əvvəlki dövrlərdən bağlı qalan 18 cinayətin açılması polis əməkdaşları tərəfindən təmin olunub.***

DİN-in Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 247, o cümlədən borclu şəxs qismində axtarışda olan 210 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqəli 37, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 10 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 69 nəfər saxlanılıb.

# Hərbçimiz vəfat etdi

***Azərbaycan Ordusunun hərbi qulluqçusu Sənan Kərəm oğlu Hüseynov kəskin ürək çatışmazlığı, ürəyin işemik xəstəliyi, miokard infarktından vəfat edib.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən bildirilib. Xidmətdən kənarda baş vermiş hadisə ilə bağlı araşdırma aparılır.

Müdafiə Nazirliyinin rəhbərliyi vəfat edən hərbi qulluqçumuzun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbir diləyir.

Allah rəhmət eləsin!

# Qusar rayonunda yazlıq bitkilərin əkini barədə

***Qusar rayonun kənd əməkçiləri yazlıq əkinlərinin demək olar ki, çox hissəsini əkmişlər.***

Cari ilin may ayının 1-dək rayonun təsərrüfatlarında 2778 hektar sahədə yazlıq bitkilər əkilmişdir. Yazlıq bitkilərin 2 hektarını vələmir, 107 hektarını dənli paxlalılar, 152 hektarını qarğıdalı, (ondan 51 hektarı dən üçün) 95 hektarını coxillik otlar, 1599 hektar sahədə kartof, 823,4 hektar sahədə tərəvəz bitkiləri əkilmişdir.

Keçən ilin eyni dövrü ilə müqayisədə 6 hektar kartof, 59,4 hektar çox tərəvəz əkilmişdir. Tərəvəz bitkiləri arasında daha çox sarımsaq, kələm, xiyar, pomidor və baş soğan sahələri üstünlük təşkil edir.

Bu ilin aprel ayında havaların isti və yağmursuz keçməsi əkinlərin vaxtında əkilməsinə səbəb olmuşdur.

Yazlıq bitkilərin əkini davam edir.

***Qusar Rayon Statistika İdarəsi***

15_27 IYUI-QARA.qxd 5/16/2024 11:05 PM Page 15



## "Dünya parçalanarkən o, klubda mahnı oxuyur" - Tramp

***"ABŞ dövlət katibi Antoni Blinken dünya parçalanarkən Kiyev klubunda mahnı ifa edir".***

"Unikal" xəbər verir ki, bunu ABŞ-nin keçmiş prezidenti Donald Tramp deyib.

"Bizə lazım olan bu deyil. Bu, mərkəzi televiziya üçün kastinq deyil. Baxın, o, çox pis iş görüb. Dünya parçalanır, o isə sadəcə oxuyur", - eks-prezident ifadə edib.

Qeyd edək ki, bir neçə gün əvvəl Blinken Kiyev musiqi klublarından birində olub və orada yerli qruplardan biri ilə səhnədə çıxış edib. ABŞ dövlət katibi musiqiçilərlə birlikdə gitarada Yanqın 1989-cu ildə "Rockin' in the Free World" mahnısını ifa edib.

***Gülayə Mecid***

## "Azərbaycan tərəfi demarkasiya prosesini davam etdirməyə meyllidir" - Qriqoryan

***Azərbaycan tərəfi Ermənistanın Tavuş vilayəti və Azərbaycanın Qazax rayonunda həyata keçirilən eyni formatda və alqoritmdə Ermənistanla demarkasiya prosesini davam etdirməyə meyllidir.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan baş nazirinin müavini, Azərbaycanla sərhədlərin müəyyənləşdirilməsi üzrə komissiyanın sədri Mher Qriqoryan hökumətin iclasında bildirib.

"Görünür, razılıq var ki, bu prosesdə qəbul edilən prinsiplər reqlamentdə öz əksini tapsın və reqlament layihəsi üzərində iş intensiv şəkildə davam etdiriləcək. Bir daha təsdiq etmək istəyirəm ki, Azərbaycan tərəfi də sərhədlərin delimitasiyası prosesini bu dəfə istifadə etdiyimiz eyni formatda, eyni alqoritmlə davam etdirməyə meyllidir", - Qriqoryan deyib.

***Ağarza Elçinoğlu***

## Yeni Kaledoniyada fransız qoşunları ilə toqquşmalar baş verib

***Fransanın Sakit Okeandakı xarici ərazisi olan Yeni Kaledoniyada etirazçılar, polis və fransız hərbçiləri arasında toqquşmalar baş verib.***

"Unikal" xəbər verir ki, bu barədə "The New York Times" nəşri məlumat yayıb.

"Fransa parlamenti ərazinin səsvermə qaydalarına dəyişiklikləri təsdiqlədikdən sonra etirazçılar Yeni Kaledoniyanın paytaxtında avtomobilləri və biznes binalarını yandırıblar", - NYT qeyd edib.

Yerli Paris rəsmilərinin bildirdiyinə görə, məktəblər də daxil olmaqla bir neçə müəssisə və ictimai bina talan edilib və ya yandırılıb.

Fransa prezidenti Emmanuel Makron xaricdə fövqəladə vəziyyət elan edib. Paris Yeni Kaledoniyanın limanlarına və beynəlxalq hava limanına qoşun yeridib və adalarda "TikTok" sosial şəbəkəsini qadağan edib.

***Gülayə Mecid***

## Serbiya prezidentini hədələyən şəxs saxlanıldı

***Serbiya prezidenti Aleksandr Vuçiçə hədə-qorxu gələn şəxs saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin Daxili İşlər Nazirliyi məlumat yayıb.

"Respublika prezidentinin təhlükəsizliyinə təhdidlər səbəbindən Sombordan olan Draqan Miyatoviç 48 saat saxlanılıb", - məlumatda deyilir.

## Ermənistan sərhədçilərini delimitasiya olunmuş ərazilərə yerləşdirdi

***Yaxın 8-10 gün ərzində qəbul edilmiş qərarların icrası məsələsi ilə məşğul olmalıyıq.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında bildirib.

"10 gündür ki, Ermənistan Respublikasının sərhəd qoşunları Baganis-Voskepar bölməsində xidmət göstərir. Yəni, sərhəd dirəkləri quraşdırılandan indiyədək sərhəd qoşunları yerləşdirilib. İndi daimi xidməti həyata keçirmək üçün yeri öyrənirlər. Bu proses digər sahələrdə də baş verəcək", - Paşinyan əlavə edib.

***Ağarza Elçinoğlu***

# ABŞ yönümlü təriqətlər Ərdoğana qarşı sui-qəsd planlaşdırıblar - KİV

***ABŞ yönümlü təriqətlər ölkənin hüquq-mühafizə orqanlarının sıralarında Türkiyə hakimiyyətinə qarşı mümkün sui-qəsddə iştirak ediblər.***



"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin "Aydınlık" qəzeti məlumat dərc edib. Qəzet yazır ki, "Bora Kaplan" cinayət təşkilatının liderlərindən biri olduğu iddiası ilə mühakimə olunan vətəndaş Serdar Sertçelik sui-qəsd işində gizli şahid olduğunu bildirib.

Sertçelik deyib ki, polis onu hakim Ak Partiyadakı bir sıra liderlərin adlarını siyahıya salmağa məcbur edib. Bundan sonra polis rəisləri saxlanılaraq işdən uzaqlaşdırılıb.

Qəzetin məlumatına görə, Türkiyənin milli kəşfiyyat təşkilatı və təhlükəsizlik qüvvələri sözügedən şəxslərin prezident Rəcəb Tayyib Ərdoğana qarşı sui-qəsd təşkil etdiyini müəyyən edib. Qeyd edilir ki, sui-qəsddə ABŞ yönümlü bəzi təriqətlər iştirak edir.

Mayın 15-də Ankara Baş Prokurorluğu hökumətə qarşı cinayət törətmək üçün mümkün sui-qəsdlə bağlı istintaqa başlayıb.

Ötən gün respublika prezidenti Rəcəb Tayyib Ərdoğan hüquq-mühafizə orqanları sıralarında mümkün çevriliş cəhdi ilə bağlı xəbərdarlıq etdikdən sonra kəşfiyyat və Ədliyyə Nazirliyinin rəhbərləri ilə fövqəladə toplantı keçirib.

Bundan əlavə, Türkiyə daha əvvəl Ankara Təhlükəsizlik Müdirliyində olan polisləri cinayət təşkilatı ilə əlaqədə olmaq ittihamı ilə işdən çıxarıb və saxlayıb. Təhlükəsizlik qüvvələri onların evlərində axtarış aparıb.

"Aydınlık" qəzetinin yazdığına görə, sui-qəsdin məqsədi Türkiyə hökumətinə qarşı üsyan, məxfi materialların yayılması və ya yüksək vəzifəli məmurlara, o cümlədən hakimlərə təsir etmək cəhdi ola bilər.

***Gülayə Mecid***

# "İlk dəfədir ki, rəsmi delimitasiya olunmuş sərhədimiz var" - Paşinyan

***Dünən Ermənistan və Azərbaycan sərhədinin demarkasiyası komissiyaları aprelin 19-da keçirilən birgə iclasda qəbul edilmiş protokola uyğun olaraq razılığa gəliblər.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında bildirib. O, baş verənləri böyük uğur hesab edib: "Suverenliyimizin və müstəqilliyimizin daha da inkişafı və möhkəmləndirilməsi üçün mühüm təməl daşı qoyulub. Müstəqillik əldə etdikdən sonra ilk dəfədir ki, respublikamızın rəsmi delimitasiya olunmuş sərhədi var ki, bu da təkcə qeyd olunan kəndlərin ərazisində deyil, həm də Ermənistan-Azərbaycan sərhədi boyunca təhlükəsizlik və sabitliyin səviyyəsini əhəmiyyətli dərəcədə artıracaq".

Onun sözlərinə görə, demarkasiya prosesi 1979-cu ildə vəzifə prosesindən keçən xəritələrlə aparılıb: "Bizim üçün prinsipial idi ki, sərhədin demarkasiyası prosesində Ermənistanla Azərbaycan arasında yeni sərhəd yaratmaq deyil, Almatı bəyannaməsi ilə əvvəllər müəyyən edilmiş prosesi təkrarlamaq lazımdır. Başqa sözlə, bizə sərhəd yaratmağa ehtiyac yoxdur, biz Sovet Sosialist Respublikaları İttifaqının dağılması zamanı mövcud olan və de-yure hüquqi əhəmiyyətə malik olan sərhədləri bərpa etməliyik".



***Ağarza Elçinoğlu***

# Türkiyə hərbi bazasına hücum planlaşdıran terrorçular məhv edildi

***Türkiyə Silahlı Qüvvələrinin baza ərazilərinə hücumun qarşısı alınıb.***

"Unikal" xəbər verir ki, Türkiyə Milli Kəşfiyyat İdarəsinin (MİT) məlumatına görə, terror təşkilatı PKK/KCK üzvləri "Tufan Koçer" kod adlı Ahmet Bayar və "Mervan Zerevan" kod adlı Əhməd İbrahim Əl Əhməd Türkiyə Silahlı Qüvvələrinin İraqın Hakurk bölgəsindəki baza ərazisinə sızmaq üçün təlimat alıb. MİT-in İraqın Hakurk bölgəsində keçirdiyi nöqtə əməliyyatında terrorçular zərərsizləşdirilib. 2012-ci ildə PKK-ya qoşulan "Tufan Koçer" kod adlı Ahmet Bayarın keçmişdə Suriyada fəaliyyət göstərdiyi və təşkilatın yüksək səviyyəli üzvlərinin mühafizəçisi vəzifəsində çalışdığı öyrənilib.

***Gülayə Mecid***

# Şarl Mişel Gürcüstana ard-arda zənglər etdi

***Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Gürcüstan Prezidenti və baş naziri ilə telefon danışığı aparıb.***

"Unikal" xəbər verir ki, bu barədə Gürcüstan mətbuatı məlumat yayıb.



Salome Zurabişvili və İrakli Kobaxidze ilə söhbəti zamanı o, bir daha Avropa gələcəyinə doğru gedən gürcüləri dəstəklədiyini qeyd edib: "Prezident Salome Zurabişvili ilə telefon danışığı zamanı mən Gürcüstandakı mövcud vəziyyəti müzakirə etdim, bundan sonra baş nazir İrakli Kobaxidzeyə zəng etdim. Mən bir daha bildirdim ki, gürcülərə Avropanın gələcəyi naminə işləmək prosesində kömək etməyi, o cümlədən gürcüstanlı vətəndaşların qanuni narahatlıqlarını həll etmək üçün ən yaxşı yolların tapılmasına kömək etməyi tam dəstəkləyirəm".

***Ağarza Elçinoğlu***

15_27 IYUl-QARA.qxd 5/16/2024 11:08 PM Page 16



# AFFA "Zirə"yə xəbərdarlıq etdi

***AFFA İntizam Komitəsi Azərbaycan Premyer Liqasının XXXIV turunda baş tutan "Zirə" - "Qarabağ" matçında yaşananlara görə meydan sahiblərinə xəbərdarlıq edib.***

"Unikal" qurumun mətbuat xidmətinə istinadən xəbər verir ki, buna səbəb "Zirə" azarkeşlərinin 89-cu dəqiqədə hakimlərin ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr işlətməsi olub.



Bu hal cari mövsümdə ilk dəfə yaşandığına görə AFFA xəbərdarlıqla kifayətlənib.

Sözügedən matçda 4 futbolçusu sarı vərəqə aldığına görə "Qarabağ" 700 manat cərimələnib.

XXXIV turun "Neftçi" - "Kəpəz" oyununda Şakir Seyidov 75-ci dəqiqədə ciddi qayda pozuntusuna yol verdiyinə və bu səbəbdən qırmızı vərəqə ilə meydandan qovulduğuna görə Gəncə klubu 1500 manat cərimələnib. Futbolçu isə iki oyunluq diskvalifikasiya edilib.

# Şəhid mayor Anar Novruzovun xatirəsinə həsr olunmuş turnir keçirilib




***Düşmən təxribatının qarşısını alarkən həyatını itirən qəhrəman Vətən övladlarından biri də Masallının Ərkivan qəsəbəsində dünyaya göz açan şəhid mayor Anar Novruzovdur.***

Sinəsini Ana Vətənə sipər edib vətənpərvərliyin ən ali məqamına yetişən, milyonların ürəyində özünə əbədi yer edən şəhidimizin 48 yaşı tamam oldu. Bu münasibətlə Masallıda Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin, eləcə Uşaq-Gənclər İdman Şahmat Məktəbinin birgə təşkilatçılığı ilə şahmat üzrə rayon turniri keçirildi.

Tədbirin təltif etmə mərasimində Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin Masallı rayonu üzrə gənclər və idman sektorunun, Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin əməkdaşları iştirak edirdilər .

Turnirə 90 nəfər şahmatçı qatılmışdı. 6 yaş qrupu üzrə 6-8-10-12-14-16 (oğlanlar və qızlar) arasında dairəvi və İsveçrə sistemi üzrə keçirilən yarışda şahmatçılar qələbə uğrunda maraqlı, gərgin mübarizə apardılar. Son nəticədə I, II və III yeri qazanan qalib şahmatçılara Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin diplomları təqdim olundu.

***Zəfər Orucoğlu, AJB üzvü***

# "Neftçi" məğlubiyyətini unutdurmalıyıq" - "Kəpəz"in kapitanı

***"Çempionatın başa çatmasına az qalıb. Biz futbolçular üçün bu, çox xoşdur (gülümsəyir). Gərgin oyunlardan sonra istirahətə ehtiyac var".***

Bu sözləri "Kəpəz"in kapitanı Yeqor Xvalko klubun mətbuat xidmətinə açıqlamasında deyib.

Belaruslu futbolçu Misli Premyer Liqasında mübarizəni dəyərləndirərkən cari mövsümü "Kəpəz" üçün iki hissəyə bölüb: "Bizim üçün çempionat həddindən artıq çətin alındı. Xüsusən də ilk iki dövrədə istədiklərimizi həyata keçirə bilmədik. Qış fasiləsindən sonrakı çıxışımız isə gələcək üçün böyük ümidlər verdi. Fikrimcə, bu mövsüm çempionat bütün klublar üçün daha mübarizəli, rəqabətli alındı. Asan oyunlar olmadı. Yarışın həm aşağı, həm də üst hissəsində gərginlik vardı. Hazırda avrokuboklara düşmək uğrunda yarış davam edir. "Qarabağ"dan sonra qitəmiqyaslı turnirlərə vəsiqə qazanmaq



üçün komandalar arasında maraqlı mübarizə gedir".

Xvalko "Kəpəz"in mövsümün əvvəlində qarşıya qoyulan hədəfə finişdən daha tez çatdığını bildirib. Bu işdə hamının əməyinin olduğunu qeyd edib: "Məqsəd elitada qalmaq idi. Biz zəhmətimizlə buna nail olduq. Klubda çalışan hər bir kəsin nəticələrdə əməyi var. Bazada, akademiyada işləyənlər - hamımız bir olduq. Bunu unutmaq olmaz. Klub rəhbərliyi də bizim rahatlığımız üçün maksimum şərait yaratdı. Belə olan vəziyyətdə futbolçular, məşqçilər korpusu olaraq əlimizdən gələnin ən yaxşısı etməyə çalışdıq. Allaha şükürlər olsun ki, bizdə alındı". Kapitan hədəfə çatmaqda azarkeşlərin rolunu, dəstəyini xüsusi ilə vurğulayıb: "Onları ayrıca qeyd eləmək istərdim. Fanatlar bizə əla motivasiya verdilər. Buna görə minnətdarıq. Komandaya münasibətləri olduqca əladır. Böyük hesabla uduzduğumuz oyunlarda belə fərqli münasibət görmədik. Bu uşaqlar komandanı çox sevirlər".

Mərkəz müdafiəçisi qarşıdakı iki turla da bağlı fikirlərini bölüşüb: "Həftəsonu "Zirə" ilə keçirəcəyimiz oyun maraqlı alınacaq. Ümumiyyətlə, bizim onlarla matçlarımız həmişə gərgin keçir. "Neftçi" məğlubiyyətini unutdurmalıyıq. "Turan Tovuz" ilə görüşə gəlincə, bu, derbidir. Nəticə qazanmaq üçün xarakter göstərməli, yaxşı hazırlaşmalıyıq".

# Avropa çempionatında Azərbaycanı bu gimnastlar təmsil edəcək

***Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək bədii gimnastika üzrə Avropa çempionatında iştirak edəcək Azərbaycan yığmasının heyəti bəlli olub.***

"Unikal" xəbər verir ki, Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, fərdi mübarizədə Zöhrə Ağamirova, Kamilla Seyidzadə və İlona Zeynalova çıxış edəcək.

Ləman Əlimuradova, Yelizaveta Luzan, Zeynəb Hümmətova, Güllü Ağalarzadə, Kamilla Əliyeva və Darya Sorokinadan ibarət qrup hərəkətləri komandası da turnirdə mübarizə aparacaq. Yeniyetmələrin yarışında Göhvər İbrahimova, Şəms Ağahüseynova, İlahə Bahadırova və Fidan Qurbanlı bacarığını göstərməyə çalışacaq. Avropa çempionatı Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyacaq.

Qeyd edək ki, mayın 22-dən 26-dək davam edəcək turnirdə ümumilikdə 302 idmançı çıxış edəcək.






# İngiltərədə VAR sistemi ləğv edilə bilər

***İngiltərə Premyer Liqasının klubları VAR-ın gələn mövsümdən ləğv olunmasına səs verəcəklər.***

"Unikal" xəbər verir ki, bu barədə "The Athletic" məlumat yayıb.

Qeyd olunur ki, İngiltərə Premyer Liqasında VAR-ın ləğv olunması ilə bağlı təklifi "Vulverhempton" klubu təqdim edib. Təklifin qəbul olunması üçün 20 klubdan 14-ü VAR sisteminin əleyhinə olmalıdırlar. Səsvermənin iyunun 6-da keçiriləcəyi gözlənilir.

Qeyd edək ki, bu mövsüm Premyer Liqada VAR sistemindən çoxlu narazılıqlar olub. Öncə daha bir İngiltərə klubu "Nottingem Forest" tətbiqin fəaliyyəti ilə bağlı Premyer Liqaya etiraz məktubu göndərmişdi.

# Millimiz Bolqarıstanla qarşılaşacaq

***21 yaşadək futbolçulardan ibarət Azərbaycan yığması yoldaşlıq oyununda qüvvəsini sınayacaq.***



"Unikal" xəbər verir ki, millimiz Bolqarıstanla qarşılaşacaq.

Oyun iyunun 11-də Bakıda təşkil olunacaq. "Liv Bona Dea Arena" baş tuatacaq qarşılaşma saat 20:00-da start götürəcək.

Qeyd edək ki, U-21 iyunun 7-də Senec şəhərində yerləşən Təlim-Məşq Mərkəzində Slovakiya yığması ilə yoldaşlıq görüşündə üz-üzə gələcək.

# 1-ci liqanın mərkəzi oyunu FİFA referisinə tapşırıldı

***Azərbaycan 1-ci Liqasının 26-cı turunda bu gün keçiriləcək iki oyununa hakim təyinatları açıqlanıb.***

QOL.az xəbər verir ki, çempionluq yolunda böyük əhəmiyyət kəsb edən "Qaradağ Lökbatan" - "Şamaxı" matçını FİFA referisi Əliyar Ağayev idarə edəcək.

"Araz Saatlı" - "İmişli" qarşılaşmasında isə Əli Əliyevə həvalə olunub.

**16 may**

17:00. "Qaradağ Lökbatan" - "Şamaxı"

Hakimlər: Əliyar Ağayev, Zeynal Zeynalov, Akif Əmirəli, Rauf Allahverdiyev.

VAR: Elçin Məsiyev.

AVAR: Kamran Bayramov.

Lökbatan Olimpiya İdman Kompleksinin stadionu (canlı // CBC Sport)

17:00. "Araz Saatlı" - "İmişli"

Hakimlər: Əli Əliyev, Şirmamed Mamedov, Aydın Baxşıyev, Əkbər Əhmədov.

Saatlı Olimpiya İdman Kompleksinin stadionu (canlı // pfl.az)